RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 58 (9803) 16 mart 2025-ci il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycan qlobal problemlərin həllində nüfuzlu söz sahibidir




## Prezident İlham ƏLİYEV: "Qafqazda öz milli maraqlarını güdən ölkə, yəni böyük bosslar qarşısında hər zaman "bəli, cənab" deməyən ölkə var"

Dövlət rəhbərimiz yada saldı ki, Azərbaycan bu məsələni dəfələrlə erməni nümayəndələrinin və onların Brüsseldəki yeni ağalarının qarşısında qaldırıb. Çünki onlar indi böyük qardaşlarını dəyişiblər. Bu gün bu, Brüsseldir. Prezident Trampın qələbəsinə qədər bu, Dövlət Departamenti, USAID idi. "Məhz indi ciddi problemlərlə üzləşən Menendes kimi rüşvətxor Amerika siyasətçiləri idi. Menendes siyahıda hələ sonuncu deyil". Azərbaycan Prezidenti bu sırada Adam Şifin, Frenk Pallonenin, xanım Nensi Pelosinin də adını çəkdi, onların onilliklər ərzində Azərbaycana hücum çəkmək, ölkəmizi gözdən salmaq üçün ABŞ-də erməni diaspor təşkilatlarından pullar aldıqlarını vurğuladı və bildirdi ki, indiki vaxtda biz Prezident Trampa bataqlığın qurudulmasında uğurlar arzu edirik. Bu, asan deyil. Lakin edilməlidir. USAID-in Azərbaycanda qeyri-qanuni fəaliyyəti ilə bağlı Amerikanın orqanları ilə məlumat mübadiləsi aparılmalıdır: "Onlar insanlara necə rüşvət verirdilər?! Onlar qeyri-qanuni maliyyə kanallarından necə istifadə edirdilər?! Onlar Azərbaycanın qanunlarını və normalarını necə pozurdular?!" deyən Azərbaycan Prezidenti çıxışında indi məsuliyyətli olmaq vaxtının yetişdiyini söylədi.

Prezidentin çıxışı ABŞ-də hakimiyyət dəyişikliyindən sonra Azərbaycan-ABŞ münasibətlərinin gələcək konturlarının təsəvvürü baxımından da böyük maraq doğurdu. Cənab İlham Əliyev vurğuladı ki, ABŞ-nin keçmiş Dövlət katibi Entoni Blinkenin Azərbaycana aid siyasəti, əslində, 30 il ərzində qurulmuş ABŞ-Azərbaycan münasibətlərini heçə endirib. Halbuki Azərbaycan hər zaman bu ölkənin çox etibarlı və yaxın tərəfdaşı olub.

Toplantıda həm də qeyd olundu ki, Azərbaycan ABŞ Dövlət Departamentinin bütün səylərinə baxmayaraq, iki ölkə arasındakı münasibətləri uçurumdan tam xilas edib. Ümid edirik ki, yeni administrasiya ilə Cənubi Qafqaz, sülh, təhlükəsizlik, antiterror əməliyyatları, regionumuzun müasir inkişafı üçün hər zaman vacib olmuş güclü tərəfdaşlığımız yenidən qurulacaq.

Azərbaycan Prezidentinin diqqətə çatdırdığı məqamlar "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunun müasir qlobal dəyişikliklər fonunda nə qədər aktual olduğunu göstərir. Bunun bir neçə əsas səbəbi var. Məlumdur ki, müasir dünyamızda mühüm geosiyasi və geoiqtisadi dəyişikliklər baş verir, yeni güc balansları formalaşır. ABŞ, Çin, Rusiya və Avropa İttifaqı kimi güc mərkəzləri arasındakı rəqabət qlobal düzəni yenidən dizayn edir. Bundan başqa, regional münaqişələr, o cümlədən Ukrayna-Rusiya müharibəsi, Yaxın Şərqdəki gərginliklər və digər hərbi konfliktlər də dünya siyasətinə əhəmiyyətli şəkildə təsir göstərir. O cümlədən ticarət müharibələri və sanksiyalar günümüzün son dərəcə əhəmiyyətli reallıqlarındandır. Qlobal iqtisadiyyatın yeni qaydaları formalaşır, ölkələr iqtisadi strategiyalarını yenidən nəzərdən keçirir.

→ 5

## Vladimir Putin, Aleksandr Lukaşenko və Emoməli Rəhmon İlham Əliyevə zəng ediblər

Martın 15-də Moskvada qeyri-rəsmi görüş keçirən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng ediblər.

Səmimi və dostluq mühitində keçirilmiş telefon söhbəti zamanı prezidentlər dövlətlərarası münasibətlərin gələcək inkişafına dair fikir mübadiləsi aparıblar.

Vladimir Putin dövlətimizin başçısını İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi ilə bağlı Moskvada keçiriləcək təntənəli tədbirlərə dəvət edib.

Prezident İlham Əliyev dəvətə görə minnətdarlığını bildirib.

Dövlət başçıları Moskvada Qələbənin 80 illiyi ilə bağlı keçiriləcək tədbirlərdə görüşəcəkləri barədə razılaşıblar.

*Prezidentin Mətbuat xidməti*

## "Cənub qaz dəhlizi"nin birləşdirici halqası

### TANAP-ın təməlinin qoyulmasından 10 il keçir

2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda TANAP-ın təməlinin qoyulması tarixi bir hadisə idi. Bu, uzunmüddətli danışıqlardan konkret işlərə keçməyə imkan yaradırdı. Çünki kəmərin salnaməsi hələ bundan xeyli əvvəl başlanmışdı. Azərbaycan Prezidenti İlham Əliyev



və Türkiyənin ovaxtkı baş naziri, indi Prezidenti olan Rəcəb Tayyib Ərdoğan TANAP üzrə hökumətlərarası sazişi İstanbulda hələ 2012-ci ilin iyun ayında imzalamışdılar. Prezident İlham Əliyevin dediyi kimi, TANAP-a aparan yol 2012-ci ildə başlamışdır.

Layihənin həyata keçirilməsi istiqamətində genişmiqyaslı işlərə də elə həmin vaxtdan start verilmişdir. 2014-cü ilin ortalarınadək layihələndirmə işləri, araşdırmalar tamamlanmışdı. Sonra mühəndis-layihələndirmə, təchizat-tədarük, tikinti-idarəçilik müqavilələri imzalanmış və kəmərin tikintisinin bütün incəlikləri nəzərdən keçirilmişdi. Beləliklə, 2014-2015-ci illər TANAP-ın ərsəyə gəlməsində çox məsuliyyətli bir dövr olmuşdu.

→ 11

## Tranzit imkanları Azərbaycanı tezliklə dünya ticarətinə yön verən ölkəyə çevirəcək

Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunda bir çox beynəlxalq məsələyə toxunaraq Azərbaycanın tranzit ölkə kimi qlobal müstəvidəki rolunu da qeyd etmişdir: "Bağlantı məsələlərinə gəldikdə, mən demək istəyirəm ki, son geosiyasi dəyişikliklərdən irəli gələrək Azərbaycandan keçən yüklərin daşınması həcmi kəskin şəkildə artmışdır. Biz bunun üçün yaxşı hazırıq, çünki biz üzərimizə düşən işi artıq icra etmişik. İndi isə biz, sadəcə, dəniz limanı, dəmiryolu infrastrukturunun buraxılış qabiliyyətini artırmalıyıq ki, son illər ərzində Azərbaycana istiqamətləndirilmiş bütün yükləri qəbul edə bilək. Beləliklə, əlbəttə ki, bölgəmizin - Cənubi Qafqaz bölgəsinin geosiyasi əhəmiyyəti artır və həmin bölgədə biz sülhün bərqərar olunması üçün hələ də çalışırıq".

Azərbaycan Orta dəhliz və "Şimal-Cənub" marşrutlarında açar ölkə olduğu üçün əksər tədbirlər də Bakıda keçirilir. Hazırda yüklərin təhlükəsiz və qısa müddətdə çatdırılmasında Orta dəhlizə alternativ marşrut yoxdur.




→ 11

## Dayanıqlı sülh

### Ermənistan Azərbaycanın şərtlərinə yalnız reallıqda əməl etdiyi halda mümkündür

İkinci Qarabağ müharibəsindən dərhal sonra Bakı İrəvana təkmil sülh modeli təklif edib. Məhz Azərbaycan tərəfinin sülhlə bağlı qərarlı mövqeyi bu istiqamətdə müəyyən irəliləyişlərin əldə olunmasına da şərait yaradıb.

İki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiyası işinə start verilməsi və digər sülh istiqamətində atılan addımlar da Azərbaycanın sülh səylərinin nəticəsidir. Ancaq təəssüf ki, postmünaqişə dövründə də havadarlarının dəstəyinə güvənən Ermənistan dildə bir, əməldə ayrı fəaliyyət sərgiləyir. Özünü dünyaya "sülh göyərçini" kimi təqdim edən təcavüzkar ölkə bir yandan Azərbaycanla sülh müqaviləsini imzalamağa hazır olduğunu deyir, digər yandan Fransanın başçılıq etdiyi Qərb dəstəkçilərinin köməyi ilə sürətlə silahlanaraq revanşa hazırlaşır, hərbi eskalasiyanı artırır.



Sözügedən forumda Prezident İlham Əliyev bildirdi ki, Ermənistana etimad səviyyəsi sıfra bərabərdir: "Beləliklə, biz onların hər hansı bir sözünə inanmırıq. Çünki onlar elə insan deyillər ki, biz inana bilək, o cümlədən onların indiki hökuməti. Bir daha bütün bunlar göstərir ki, onların dediyi bizim üçün sıfır məna kəsb edir.

→ 9

## Vardanyanın müdafiəsi üçün canfəşanlıq edənlərin fiaskosu

### BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupu həqiqətlərə əsaslanaraq qərar verib

Bir sıra xarici dairələr, xüsusilə, Ruben Vardanyanın müdafiəsində canfəşanlıq edirlər. Yəqin ki, bu da səbəbsiz deyil, çünki onlar bu yolla milyarder Vardanyanın maliyyəsindən pay qoparmağı özlərinə fürsət bilirlər. Lakin belələrinin beynəlxalq ictimaiyyətdə dəstək almaq cəhdləri fiaskoya uğrayır. Bunu BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupunun Ruben Vardanyan işi ilə bağlı Ermənistan tərəfinin iddialarını rədd etməsi də təsdiqləyir. Qurum bununla bağlı martın 13-də öz rəyini dərc edib.

İşçi qrup öz rəyində Ermənistan tərəfinin Ruben Vardanyanın ifadə azadlığı və siyasi fəaliyyətinə görə həbs olunduğu barədə iddialarını açıq şəkildə rədd edib. Sözügedən rəydə xüsusilə vurğulanır ki, Ruben Vardanyan Azərbaycan Respublikası tərəfindən bir sıra şəxslərin ölümündə və genişmiqyaslı dağıntılar törədilməsində, terrorçuluğun maliyyələşdirilməsində, qeyri-qanuni silahlı birləşmələr yaradılmasında və digər cinayətlərdə ittiham olunur və məhz bu ittihamlar əsasında həbs olunub.



→ 8

## N.Ə.Əbdürrəhmanın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Fələstin Dövləti arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Nasir Əbdülkərim Əbdürrəhman "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 mart 2025-ci il*

## "İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsi"nə qoşulmaq haqqında

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 2012-ci il noyabrın 22-də İslamabad şəhərində imzalanmış "İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsi"nə qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2025-ci il*

## Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Əsgərov Vasif Asif oğlu - polkovnik-leytenant

Mirzəyev Ruslan Cəmil oğlu - polkovnik-leytenant

**"Vətən uğrunda" medalı ilə**

İsmayılov Ramin Əfsələddin oğlu - polkovnik-leytenant

Behbudov Nofəl Arif oğlu - mayor

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Abbasov Hafiz Sakitoğlu - polkovnik-leytenant

Ələkbərov Eldəniz Yaşar oğlu - polkovnik-leytenant

Abdullayev Tural Front oğlu - mayor

Eyvazlı Pərviz Barat oğlu - mayor

Mayılov Elməddin Nəcməddin oğlu - mayor

Musayev İlqar Sabir oğlu - mayor

Heydərov Fuad Abdulla oğlu - kapitan

Nəcəfov Fadiq İsa oğlu - kapitan.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 mart 2025-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 590 (Cild I); 2024, № 4, maddə 373; 2025, № 1, maddə 28) ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bənddən "habelə" sözü çıxarılsın və həmin bənddə "sahəsində" sözü ", eləcə də Şuşa şəhəri və Şuşa rayonu ərazisində əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların və fərdi yaşayış evlərinin idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 2.1.1-1 - 2.1.1-5-ci və 3.1.1-1 - 3.1.1-15-ci yarımbəndlər əlavə edilsin:

"2.1.1-1. Şuşa rayonu (bundan sonra - rayon ərazisində) və müvafiq ərazidə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək;

2.1.1-2. tikintisini təşkil etdiyi çoxmənzilli binaları, həmin binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək, müvəqqəti idarə etmək;

2.1.1-3. rayon ərazisində və müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatı idarə etmək;

2.1.1-4. rayon ərazisində və müvafiq ərazidə abadlaşdırma və yaşıllaşdırma işlərini təşkil etmək;

2.1.1-5. müvafiq ərazidə yerləşən, balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək;";

"3.1.1-1. rayon ərazisinə və müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək, o cümlədən bu tikinti işləri üzrə sifarişçi funksiyalarını həyata keçirmək;

3.1.1-2. rayon ərazisində və müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binaların qorunmasını və saxlanılmasını təmin etmək, həmin binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək bu binaları müvəqqəti idarə etmək;

3.1.1-3. idarə etdiyi çoxmənzilli binalarda quraşdırılmış liftlərin işlək vəziyyətdə saxlanılmasını, cari və əsaslı təmirini həyata keçirmək, onların istismarına nəzarət etmək;

3.1.1-4. rayon ərazisində və müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binalara və fərdi yaşayış evlərinə sakinlərin köçməsindən irəli gələn təşkilati və digər tədbirlər görmək;

3.1.1-5. rayon ərazisində və müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatın və mənzil-istismar sahələrinin yaradılmasını və idarə olunmasını təşkil etmək, mühəndis-kommunikasiya təminatı sistemlərinin saxlanılmasına, cari və əsaslı təmirinə, eləcə də istismarına nəzarət etmək, mənzil-kommunal infrastrukturunun inkişafını təmin etmək;

3.1.1-6. rayon ərazisində və müvafiq ərazidə əhaliyə göstərilən kommunal xidmətlərin keyfiyyətinə və həcminə nəzarəti həyata keçirmək;

3.1.1-7. rayon ərazisində və müvafiq ərazidə içməli su, kanalizasiya, elektrik və qaz şəbəkələri və qurğularının fasiləsiz işinin təmin olunmasına nəzarət etmək, bu sahədə təsərrüfat xidmətlərinin fəaliyyətini əlaqələndirmək;

3.1.1-8. idarə etdiyi çoxmənzilli binaların və tikintisini təşkil etdiyi digər obyektlərin, habelə müvafiq ərazidə sosial-mədəni obyektlərin qış mövsümünə istismara hazırlıq işlərinin həyata keçirilməsi üçün müvafiq tədbirlər görmək;

3.1.1-9. rayon ərazisində və müvafiq ərazidə yaşayış məntəqələri ərazilərinin abadlaşdırılması və yaşıllaşdırılması işini, eləcə də yaşıllıqların mühafizəsini təşkil etmək;

3.1.1-10. müvafiq ərazidə yerləşən, balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək;

3.1.1-11. rayon ərazisində və müvafiq ərazidə məhəllələrin, küçələrin, meydanların, parkların və yaşıllıq zonalarının işıqlandırılması sisteminin istismara yararlı vəziyyətdə olması işini təşkil etmək;

3.1.1-12. İdarəyə ayrılan məqsədli vəsaitlər hesabına Azərbaycan Respublikası Prezidentinin tapşırığı əsasında müvafiq ərazidə sosial təyinatlı və digər obyektlərin tikintisinin təşkilini, onların tikintisi üzrə sifarişçi funksiyalarının yerinə yetirilməsini, habelə bu qaydada tikilmiş obyektlərin qorunmasını, saxlanılmasını və təyinatı üzrə istifadəsini təmin etmək;

3.1.1-13. rayon ərazisində və müvafiq ərazidə bayramlara və digər əlamətdar hadisələrə, habelə anım günlərinə həsr olunmuş ictimai tədbirlər keçirmək, tərtibat işləri aparmaq və digər zəruri tədbirlər görmək;

3.1.1-14. rayon ərazisinə və müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar digər dövlət orqanlarının (qurumlarının) sifarişi ilə aparılan tikinti işlərinə zəruri təşkilati dəstək göstərmək;

3.1.1-15. rayon ərazisində dövlət və bələdiyyə mülkiyyətində olan tarix və mədəniyyət abidələrinin konservasiyası, təmiri, bərpası, rekonstruksiyası və regenerasiyası işlərinə zəruri təşkilati dəstək göstərmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 mart 2025-ci il*

## Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşları peşə bayramlarını qeyd ediblər



**Martın 16-da Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi əməkdaşlarının peşə bayramı günüdür.**



AZƏRTAC xəbər verir ki, peşə bayramı ilə əlaqədar Agentliyin rəisi general-mayor İlqar Abbasov və şəxsi heyəti Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla anaraq, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Həmçinin görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın, tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanında Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi yad edilərək məzarları üstünə güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub. Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi əməkdaşlarının peşə bayramı münasibətilə tədbir Agentliyin akt zalında davam etdirilib.

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 mart tarixli Sərəncamı ilə Agentliyin 12 nəfər hərbi qulluqçusu xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə dövlət təltifləri ilə mükafatlandırılıb. Agentlik rəisinin müvafiq əmrləri ilə isə bir qrup hərbi qulluqçu müxtəlif medallar və digər mükafatlarla təltif olunub.

Qeyd edək ki, beynəlxalq terrorizmin və sui-qəsdlərin geniş vüsət aldığı bir vaxtda mühafizə işinin təkmilləşdirilməsi və terrorçuluğa qarşı mübarizə, yüksək peşəkarlığa malik kadrların hazırlanması Agentliyin qarşısında duran əsas vəzifələrdəndir. Situasiya mərkəzinin yaradılması, pilotsuz uçuş aparatlarından, termal və optik spektr şəbəkə kamerası kimi texnikanın yeni nailiyyətlərindən istifadə olunması mühafizə fəaliyyətinin səmərəli şəkildə həyata keçirilməsi üçün yaradılmış təminatlardandır.

## Beynəlxalq Akademiya Yaqub Mahmudov haqqında kitab nəşr etdirib

**Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının (TDABEA) Baş Elmi Şurasının 2025-ci il 14 yanvar tarixli qərarı ilə Türkiyənin paytaxtı Ankara şəhərində Azərbaycan, türk və ingilis dillərində "Professor Yaqub Mahmudov" adlı kitab çap olunub.**




"Azərbaycan Tarixçiləri" İctimai Birliyindən AZƏRTAC-a bildirilib ki, nəfis şəkildə çap olunan kitabın elmi redaktoru TDABEA-nın Ankara şəhərində başqanı, professor Hayrettin İvgindir.

Yeni nəşrdə AMEA-nın müşaviri, akademik Yaqub Mahmudovun həyatı, elmi-pedaqoji və ictimai-siyasi fəaliyyəti barədə yığcam məlumat verilir. Nəşrə, həmçinin görkəmli tarixçi alimin həyat və fəaliyyətini əks etdirən fotomateriallar daxil edilib.

Bundan başqa, Yaqub Mahmudov TDABEA-nın Mükafat Komitəsinin 2025-ci il 3 fevral tarixli qərarı ilə "Özgürlük" ordeninə layiq görülüb. Akademikə bu orden türk dünyasının elm və təhsilindəki böyük xidmətlərinə görə verilib.

Xatırladaq ki, Yaqub Mahmudov 2019-cu ildə TDABEA-nın həqiqi üzvü seçilib və həmin akademiyanın "Beynəlxalq Qızıl Ulduz" medalı (2019), Beynəlxalq Atatürk Mükafatı (2019), 2019-cu il üçün "Türk dünyasında ilin elm adamı" beynəlxalq mükafatı (2020), "İstiqlal" ordeni (2023) və 2022-ci il üçün "Türk dünyasında ilin adamı" beynəlxalq mükafatı (2023) ilə təltif edilib.

# Heydər Əliyev Mərkəzində qədim insan məskənlərinin mühafizəsinə dair beynəlxalq konfrans təşkil olunub

**Martın 15-də Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Qədim insan məskənlərinin mühafizəsi: Təhdidlər və müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib.**






AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azıx və Tağlar mağaraları ilə bağlı videoçarx nümayiş olunub.

Konfransda çıxış edən mədəniyyət nazirinin müavini Fərid Cəfərov mövzu ilə bağlı vacib məqamları diqqətə çatdırıb. Bildirib ki, əsas məsələ beynəlxalq səviyyədə qədim insan məskənlərinin mühafizəsi üzrə tədbirin keçirilməsidir. "Təbii ki, bu məskənlər ən çox müharibələr zamanı vandalizmə məruz qalır. Bundan əlavə təbiət hadisələri də bu prosesə təsir göstərir. Əslində, 150 ildir ki, beynəlxalq hüquqda silahlı münaqişələr zamanı mədəni irs məsələsi aktualdır. Minaların mədəni irsə təsiri mövzusunda Ağdamda böyük konfrans keçirildi. Ağdam mina təhlükəsi ilə üzləşmiş ərazilərdən biridir. Bu gün mühafizə rejimləri dəyişməli, yeni çağırışlara uyğunlaşmalıdır. Xüsusilə, iqlim dəyişikliyi ilə bağlı təhdidlərə qarşı tədbirlər görülməlidir. COP29 çərçivəsində mədəniyyətin iqlim dəyişikliyi ilə qarşılıqlı təsiri məsələsi də müzakirə olunub. Mədəniyyət iqlim dəyişikliyinin nəticələrinin azaldılmasında mühüm rol oynayır", - deyə F.Cəfərov əlavə edib.

Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev qeyd edib ki, hazırda mədəni irs üçün ən böyük təhlükə mina problemidir. O, işğaldan azad edilmiş ərazilərin böyük bir hissəsinin mədəni irs abidələrinin əhatəsində yerləşdiyini deyib: "Bu istiqamətdə UNESCO çərçivəsində müəyyən işlər aparılır. Mina məsələsi həm maddi, həm də qeyri-maddi mədəni irsə aid mühüm mövzulardan biridir. Qədim insan məskənlərində tədqiqatlar alimlərin fikirləri bir daha sübut edir ki, mədəni irsin qorunması əsas prioritetlərdən biridir. Belə müzakirələrin aparılması vacibdir, çünki beynəlxalq təşkilatlara təqdim olunan istiqamətlər ekspertlər və ictimaiyyətin formalaşdırdığı mövzular əsasında qurulur. Bununla belə, ilk növbədə, bilik və ekspertiza əsas amildir. Əgər bunlar olmasa, beynəlxalq təşkilatlara yönələn mövqelər zəifləyəcək. Qədim insan məskənlərinin UNESCO çərçivəsində irəlilədilməsi və gələcəkdə nominasiya olunması çox vacib məsələdir".

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova Fond haqqında mövzuya dair fəaliyyət istiqamətindən söhbət açıb. "Qədim yaşayış məskənləri keçmişin mənəvi, tarixi mənbələridir. Onların qorunması tariximizin və mədəniyyətimizin gələcək nəsillərə ötürülməsi üçün olduqca vacibdir. Belə abidələrin qorunması arxeologiya və bərpa sahəsində yeni metodların tətbiqini tələb edir. Bugünkü tədbir bizə dünya mədəni irsinin ayrılmaz parçası olan tarixi abidələrin qorunması məsələlərini müzakirə etmək imkanları yaradır", - deyə o əlavə edib.

İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) Mədəniyyət İnstitutunun prezidenti Saad S.Xan İƏT-in fəaliyyət istiqaməti barədə məlumat verib.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Antropologiya İnstitutunun direktoru, Almaniya Arxeologiya İnstitutunun müxbir üzvü, dosent Fərhad Quliyev işğaldan azad edilən ərazilərdə çalışan zaman keçirdiyi hissləri belə ifadə edib: "Həmin dövrdə mədəni abidələrimizin məqsədli şəkildə dağıdılmasının canlı şahidi olduq. Bu, olduqca ağrılı və çətin idi. Azərbaycan xalqının tarixi abidələri sistematik şəkildə məhv edilib. Məqsədimiz bu abidələri bərpa edib, gələcək nəsillərə ötürməkdir".

AMEA-nın Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, Akademiyanın müxbir üzvü Vəli Baxşəliyev Gəmiqaya təsvirləri barədə ətraflı məlumat verib və onların qədim tariximizin şahidi olduğunu vurğulayıb.

Tədbir sual-cavab sessiyası ilə davam edib.

# XII Qlobal Bakı Forumu

*"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi"*

## Qadınların fəaliyyətini dəstəkləyən xüsusi tədbirlərin həyata keçirilməsinə ehtiyac var

**Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu üçüncü günündə işini panel iclaslarla davam etdirib.**

AZƏRTAC xəbər verir ki, BMT-Macarıstan Assosiasiyasının prezidenti, "Women4Diplomacy" Hərəkatının qurucusu, UNESCO-nun 36-cı sessiyasının prezidenti, Macarıstanın BMT və UNESCO yanındakı sabiq səfiri Katalin Boqyayın moderatorluğu ilə keçirilən sessiya "Gender-Təhlükəsizlik-İqlim bağlantısı" mövzusuna həsr olunub.

Panel sessiyada çıxış edən Latviyanın sabiq Prezidenti (1999-2007), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa qeyd edib ki, dünyada baş verən hər bir proses qadınlara təsir edir. Əgər nəyi isə təkmilləşdirmək istəyiriksə, qadınların dəstəyini almalıyıq.






Xüsusilə müharibə və digər fəlakətlərin qadınlara təsir etdiyini söyləyən sabiq Prezident vurğulayıb ki, bu təsir qeyri-mütənasib şəkildə baş verir. O bildirib ki, dünyanın müəyyən bölgələrində coğrafi yerləşmə səbəbindən insanlar risk altında yaşayırlar. Lakin qadınlar bu risklərə daha çox məruz qalırlar. "Qida məhsullarının çatışmazlığı da qadınlara daha çox təsir edir. Kənd təsərrüfatı sahəsində çalışan qadınlar daha kasıbdır və onlar su çatışmazlığı kimi problemlərlə üzləşirlər. Bu sahədə çalışan qadınlar çox vaxt məcbur olub suya görə uzaq məsafələr qət edirlər. Bu zaman isə daha böyük təhlükələrlə üz-üzə qalırlar", - deyə o əlavə edib.

Vike-Freyberqa vurğulayıb ki, bu məsələlərlə bağlı maarifləndirmə kampaniyaları daha geniş və intensiv olmalıdır: "Cəmiyyətə izah etməliyik ki, bu, sadəcə şüar deyil - biz real təsirlərə nail olmaq üçün çalışırıq".

Yunanıstanın sabiq Baş naziri (2009-2011) George Papandreu qeyd edib ki, qadınlar maddi vəsaiti kişilərə nisbətən daha konstruktiv və məhsuldar şəkildə istifadə edə bilirlər. "Ekoloji təsirlər dünyada qeyri-mütənasib şəkildə qadınlara və digər qruplara təsir edir. Onlar bəzən cəmiyyətdə zəif mövqedə olurlar və bu vəziyyət daha da ağırlaşır. Buna görə də qlobal səviyyədə yalnız qadınların bu sahələrdə iştirakını təmin edən tədbirlərin deyil, eyni zamanda, onların fəaliyyətini dəstəkləyən xüsusi tədbirlərin həyata keçirilməsinə ehtiyac var. Çünki çox vaxt məhz qadınlar icmaları təhsil və təlim vasitəsilə bir arada saxlayan əsas qüvvə rolunu oynayırlar", - deyə o əlavə edib.

Misirin İnsan Hüquqları üzrə Milli Şurasının prezidenti, Kemet Butros Ghali Sülh və Bilik Fondunun icraçı prezidenti, 2009-2011-ci illərdə Misirin ailə və əhali naziri olmuş Muşirə Xəttab deyib ki, Təhlükəsizlik Şurasının "Qadınlar, Sülh və Təhlükəsizlik" gündəliyi mövcuddur. Məhz indi Təhlükəsizlik Şurasının fəaliyyət planının ciddi şəkildə həyata keçirməsinin vaxtıdır. Bu fəaliyyət planı çərçivəsində Yaxın Şərqdə, Avropada və digər regionlarda qadınların rolu müzakirə edilə bilər.

O, həmçinin qeyd edib: "İqlim böhranı həqiqətən mövcudluğumuza təhdiddir və qadınlar bu problemdən ən çox əziyyət çəkənlər arasındadırlar - yalnız vətəndaş olaraq deyil, eyni zamanda qadın, ana və fərd kimi".

Liviyanın Avropa İttifaqındakı sabiq səfiri, şahzadə Talal bin Əbdüləziz Əl Səudun baş müşaviri Farida Allaqi bildirib ki, hazırda dünyada dəhşətli münaqişələr yaşanır. Minlərlə qadın silahlı münaqişə şəraitində yaşamağa məcburdur və bu, olduqca qorxuncdur. "Qəti şəkildə inanıram ki, bu gün bizə söz yox, fəaliyyət lazımdır. Qadınlara, uşaqlara və kimsəsizlərə yardım etməli, həmçinin yeni nəsil fəal qadın və kişilər yetişdirməliyik", - deyə o vurğulayıb.

Panel iclası müzakirələrlə davam edib.

## "Gənclər danışsın, biz dinləyək" mövzusunda panel iclas keçirilib






**XII Qlobal Bakı Forumunun sonuncu günündə 11-ci panel iclası "Gənclər danışsın, biz dinləyək" mövzusuna həsr olunub.**

AZƏRTAC xəbər verir ki, panel iclasına Qlobal Siyasət İnstitutunda tədqiqatçı və Lafiya Nigeriya Fondunun təsisçisi Klaudia Marta Xmielovska moderatorluq edib.

Paneldə çıxış edən Harvard Biznes Məktəbində MBA tələbəsi və "Terran Paragon" təşkilatının qurucusu və icraçı direktoru Uilliam Uanq bildirib ki, onun təşkilatı qlobal istedadı inkişaf etməkdə olan ölkələrlə birləşdirmək, bilik mübadiləsini təşviq etmək və XXI əsrin bilik iqtisadiyyatını qabaqcıl şirkətlər və dövlət qurumları ilə strateji tərəfdaşlıqlar vasitəsilə irəlilətmək məqsədini güdür: "Bizim şirkətimiz gənclərə kömək edir, çünki gələcəkdə onlar liderlər olacaqlar. Biz gənclərə hər sahədə kömək etməyə hazırıq". O, həmçinin özünün iş və təhsil təcrübəsini bölüşüb.

"De Jong Capital"da Baş ofis rəhbəri (Managing Partner Büro rəhbəri) Paskal Rathle təmsil etdiyi şirkətin strategiyası və fəaliyyəti haqqında məlumat verib.

"ABŞ-də bir şirkətdə baş icraçı direktorun maaşı sıravi işçilərin məvacibindən 40 dəfə çoxdur, bu, nə dərəcədə düzgündür? Belə ədalətsiz gəlir bölgüləri qarşısında gənclərin işlə təmin olunması və öz rifahını yüksəltməsi üçün heç bir motivasiya qalmır. Etikaya sadiqlik, bərabər bölgü məsələləri prioritet olmalıdır", - deyə o əlavə edib.

"DIFC Authority"də Qrup Strategiyası üzrə köməkçi menecer Milind Taneja bildirib ki, bir çox inkişaf etməkdə olan ölkələrdə dövlət büdcəsinin 50 faizdən çoxu borcların və kreditlərin ödənilməsinə sərf edilir. Bu isə o deməkdir ki, onlar nə evlər tikməyə, nə təmiz enerji keçidləri üçün infrastruktur yaratmağa, nə də əsas səhiyyə xidmətlərini təmin etməyə maliyyə ayıra bilmirlər. "Bu, bizim üçün böyük bir böhrandır. Bu, təkcə iqtisadi problem deyil, həm də kifayət qədər maliyyələşmənin olmaması səbəbindən dayanıqlılıq və davamlı inkişaf üçün yaranan insan böhranıdır. Bu o deməkdir ki, biz maliyyələşdirmə məsələsini həll etmədikcə, çoxlu insanın həyatını təhlükəyə atırıq, onları əsas xidmətlərindən və iqtisadi imkanlardan məhrum edirik və nəticə etibarilə dayanıqlı inkişafla xarakterizə olunan gələcəyə sürətlə çatmağımıza mane oluruq. Beləliklə, bu məsələ çox təcili həll olunmalıdır. Son bir neçə gündə biz bu mövzu ətrafında geniş müzakirələr apardıq", - deyə Milind Taneja vurğulayıb.

COP29 Gənclər İqlim Çempionu Leyla Həsənova çıxışında iqlim dəyişikliyinin gənclər üçün yaratdığı çağırışlardan danışaraq, onların bu qlobal problemin həllində fəal rol oynaya biləcəyini bildirib.

"Gənclərin ekoloji təşəbbüslərdə iştirakı və innovativ həll yolları tapmaq bacarığı iqlim dəyişikliyi ilə mübarizədə mühüm rol oynayır.

Davamlı inkişafın təmin olunması üçün gənclərin maarifləndirilməsi və onların qərar qəbuletmə prosesinə cəlb olunması vacibdir", - deyə Leyla Həsənova diqqətə çatdırıb.

Digər çıxış edənlər öz ölkələrinin təcrübələrindən və mövcud problemlərdən danışıblar.

## Süni intellekt və real həllər tibbi xidmətlərə çıxışı genişləndirə bilər

**Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu martın 15-də işini panel iclaslarla davam etdirib.**

AZƏRTAC xəbər verir ki, UNESCO-nun Rasizmə Qarşı Şəhərlərin Koalisiyası təşkilatının rəhbəri Benedetto Zaçirolinin moderatorluğu ilə keçirilən sessiya "Qlobal səhiyyə böhranda: Hazırlılıq və bərabərlikdə yeni cəbhələr" mövzusuna həsr olunub.

Panel sessiyada çıxış edən Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev səhiyyə sənayesinin texnoloji irəliləyişlərin, məlumatlara əsaslanan qərarların qəbulu və fərdiləşdirilmiş tibbin birləşməsi ilə formalaşacağını bildirib. O, süni intellekt və real həllərin ən mühüm töhfələrindən birinin ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi yolu ilə tibbi xidmətlərə çıxışın genişləndirilməsi olacağını diqqətə çatdırıb.






Nazir bildirib ki, pandemiya və xəstəliklərin yayılması kimi qlobal səhiyyə böhranı dağıdıcıdır. Eyni zamanda müsbət dəyişikliklər üçün imkanlar yaradılır. Bu böhranlar vaksinlərdə, müalicə üsullarında və tibbi texnologiyalarda təcili yeniliklərə təkan verir.

Böyük Britaniyanın Lordlar Palatasının üzvü Suzan Qrinfild çıxışında rəqəmsal transformasiyanın dünyada baş verən dəyişikliklərə uyğun olaraq insan beyninə təsir göstərdiyini söyləyib. Qeyd edib ki, dünyada baş verən hadisələr müsbət məcrada gedirsə, insan beyni buna köklənir, lakin neqativ tendensiyalar beynin qavrama və analiz etmə funksiyalarına mənfi təsir edə bilər.

Qrinfild, həmçinin rəqəmsal texnologiyaların inkişafı ilə paralel olaraq beynin sağlamlığına yönəlmiş elmi araşdırmaların və maarifləndirmə tədbirlərinin vacibliyini də vurğulayıb.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Dünya Bankının sabiq vitse-prezidenti İsmail Serageldin deyib ki, inkişafın istiqamətləri bu gün düşünülməli, həm də qidalanma məsələsi təşviq edilməlidir. Düzgün qidalanma xüsusilə ucqar rayonlarda yaşayan yoxsul analar üçün vacibdir. İlk növbədə, onlar tam çəkiyə uyğun körpələr həyata gətirəcək. İkincisi, həmin körpələr ana südü ilə qidalana biləcəklər.

"Bütün bunlar çox vacibdir. Problemlərin ilk təzahürləri məhz buradadır. Bu gün teletibb və süni intellektlə keçmiş illərdə mümkün olmayan rabitə şəbəkələrinə çatmaq imkanımız var", - deyə İsmail Serageldin əlavə edib.

Moldovanın sabiq Baş naziri Çiril Qaburici bildirib ki, kiçik və ya kasıb ölkələr maliyyə vəsaiti əldə etməkdə çətinlik çəkirlər. Məlumatların paylanması bərabər deyil və çoxlu problemlər var. O, səhiyyə siyasəti, düzgün protokollar, səhiyyə xidmətlərinə çıxış və onların saxlanılması baxımından əlavə işlər görülməsinin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, eyni zamanda dövlət qurumları da ictimaiyyətə lazımi dəstəyi verməlidir.

İsrailin sabiq Prezidenti, Knessetin keçmiş sədri (2006-2009), Hadassah Tibb Təşkilatının İdarə Heyətinin sədri Daliya İtzik qlobal səhiyyə məsələsinin son dərəcə vacib olduğunu bildirib. Qeyd edib ki, dünya pandemiyalar, iqlim dəyişikliyi və müxtəlif səhiyyə siyasətlərinin tətbiqi fonunda bu cür problemlərlə üzləşməyə davam edir.

"Mən birlikdə fəaliyyət göstərməyin çox vacib olduğunu düşünürəm. Xristian, müsəlman, yəhudi - hər kəs eyni vaxtda eyni müalicəni ala bilər. Nə qədər çox əməkdaşlıq etsək, işimiz dünyaya gözəl bir mesaj olacaq", - deyə Daliya İtzik əlavə edib.

Qlobal Əməkdaşlıq Forumunun prezidenti və CEO-su Amir Dossal Azərbaycanın səhiyyə sektorunda gördüyü işlər, süni intellekt sahəsindəki nailiyyətləri barədə məlumat aldığını, ölkəmizdə bu sahədə görülən tədbirlərin təqdirəlayiq olduğunu qeyd edib. Onun sözlərinə görə, Azərbaycan bu sahədə digər ölkələrə kömək edə bilər.

"Hazırda 700 milyon insan qidalanma çatışmazlığından əziyyət çəkir. Biz bunun qarşısının alınması məsələsini yetərincə müzakirə etmirik. Düşünürəm ki, səhiyyənin milli mülkiyyətə çevrilməsi ilə biz bu problemin qarşısının alınması imkanlarını daha da artırırıq", - deyə Amir Dossal diqqətə çatdırıb.

Hadassah Tibb Təşkilatının Baş direktoru Yoram Veiss bildirib ki, dünyada təkcə demoqrafik dəyişikliklər getmir, həmçinin elm də dəyişir. Elm həm də epidemiyanın baş verməsi, yeni bir pandemiya ehtimalı yaradır və hər kəs bunun fərqində olmalıdır.

"Bununla yanaşı, antimikroblardan istifadə çox problemlidir. Ona görə də bu məsələnin fərqində olmalıyıq", - deyə Y.Veiss vurğulayıb.

Sessiya müzakirələrlə davam edib.

GLOBAL BAKU FORUM

# XII Qlobal Bakı Forumu

*"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi"*

## Forumda "Yeni dünya üçün yeni texnologiyalar" adlı panel iclas keçirilib






**Qlobal Bakı Forumunun üçüncü günündə "Yeni dünya üçün yeni texnologiyalar" mövzusunda panel iclas keçirilib.**

AZƏRTAC xəbər verir ki, ABŞ-nin Alman Marşal Fondunun və Annenberq Siyasət Mərkəzinin eksperti Susan Nessin moderatorluğu ilə keçirilən paneldə Beynəlxalq Telekommunikasiya İttifaqının baş direktorunun müavini Tomas Lamanauskas, Oksford Universitetində Süni İntellekti İdarəetmə Təşəbbüsünün baş məsləhətçisi Sam Davs, Yunanıstanın sabiq baş naziri (2009-2011) George Papandreu, Birləşmiş Millətlər Təşkilatının Baş Qərargahında İnformasiya və Kommunikasiya Texnologiyaları Ofisinin İT mütəxəssisi, baş katibin köməkçisi Bernardo Mariano, Bolqarıstanın sabiq prezidenti Rosen Plevneliyev, Monteneqronun sabiq müdafiə naziri Miliça Pejanoviç, Şanxay Əməkdaşlıq Təşkilatının keçmiş baş katibi, Özbəkistanın sabiq xarici işlər naziri Vladimir Norov, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru Fariz Cəfərov iştirak ediblər.

Beynəlxalq Telekommunikasiya İttifaqının baş direktorunun müavini Tomas Lamanauskas çıxışında qeyd edib ki, yeni texnologiyaların tətbiqi prioritetdir. Lakin onların yaratdığı təhlükələri aradan qaldırmaq üçün də çox çalışmaq lazımdır. "Hazırda dünyada bütün sahələr üzrə süni intellekt texnologiyalarının yalnız 45 faizi tətbiq olunur, 25 faizi isə yoxlanılma mərhələsindədir. İşçi heyətə gəldikdə, qadınlar onun yalnız 20 faizini təşkil edir. Bu müzakirələrə hazırlaşanda biz idarəçilik sahəsində və təhlükəsizlik baxımından hansı məsələlərin vacib olduğu barədə danışdıq. Məlum oldu ki, Afrikada emal mərkəzinə cəmi 2 faiz məlumat göndərilir. Qeyd etmək lazımdır ki, BMT bu sahədə müxtəlif təşəbbüslər irəli sürüb, bura təhlükəsizlik, monitorinq və digərləri daxildir. Ötən il biz BMT sistemində 50-dək mexanizm hazırlamışıq. UNESCO-nun hazırladığı etik davranış mexanizmini də xüsusi vurğulamaq istərdim. Bu baxımdan, süni zəka ilə bağlı BMT-nin Baş katibinin çağırışını xüsusi qeyd etmək istəyirəm.

Düşünürəm ki, süni zəkanın bütün dünyada tətbiqi üçün qlobal mərkəzlər yaradılmalı, qanunvericilik təkmilləşdirilməli, insanların bacarıqları inkişaf etdirilməlidir. Dünya ölkələrinin yalnız 5 faizinin süni zəka sahəsində bacarıqlı kadrları var. Biz süni zəka sahəsində bacarıqlı kadrların sayının artırılması üçün 100-dən çox ölkəni bir araya gətirib, qlobal tədris mərkəzləri yaratmışıq", - deyə Tomas Lamanauskas əlavə edib.

Oksford Universitetində Süni İntellekti İdarəetmə Təşəbbüsünün baş məsləhətçisi Sam Davs süni zəka texnologiyalarının diqqətdə saxlanılmasının vacibliyini qeyd edərək, dövlətlər arasında geosiyasi rəqabətin olduğunu deyib. "Hər kəs texnologiyada olan yenilikləri öz ölkəsində tətbiq etmək istəyir. Bununla bağlı müxtəlif ölkələr təlimlər keçirir", - deyə Sam Davs diqqətə çatdırıb.

Çində texnologiyalarla bağlı tənzimləyici qaydaların qüvvəyə mindiyini vurğulayan baş məsləhətçi süni zəkanın parçalanmaya gətirib çıxarma ehtimalını da istisna etməyib.

Yunanıstanın sabiq baş naziri George Papandreu bildirib ki, texnologiya təhsil, iqlim dəyişikliyi kimi problemlər üçün yox, kütləvi qırğın silahlarının hazırlanması üçün daha çox istifadə olunur. Sabiq baş nazir bunun nəzarətdən kənarda qaldığını, süni zəkanın ABŞ və Çin kimi iri dövlətlərin əlində olduğunu bildirib.

"Təhsildə, iqlim dəyişikliyində bu texnologiyalar çox vacibdir. Süni zəkanın demokratiya üçün necə istifadə edilməsini düşünməliyik, çünki texnologiyalar bəşəriyyətə xidmət etməlidir", - deyə o vurğulayıb.

BMT-nin nümayəndəsi Bernardo Mariano qeyd edib ki, süni zəka üzərində təxminən 60 il araşdırma aparılıb və ChatGPT yaranıb. "Onun inkişafı bizi hazırda çox təəccübləndirir. Hökumətlər süni zəka ilə bağlı problemləri həll etməlidirlər. Süni zəkanın pozitiv tərəfləri kimi, neqativ və qaranlıq tərəfləri də var. Süni zəka hazırda fərdlər tərəfindən idarə olunur. Bu, əvvəllər heç vaxt görünməyib. Burada dövlətlərdən çox fərdlər irəli çıxır. BMT hökumətlərə mövcud problemlərlə yanaşı, yeni ortaya çıxmış texnologiyaların yaratdığı problemləri aradan qaldırmaq üçün dəstək göstərməlidir", - deyə o əlavə edib.

Bolqarıstanın sabiq prezidenti Rosen Plevneliyev vurğulayıb ki, XII Qlobal Bakı Forumunda texnologiyaların etik şəkildə istifadəsi müzakirə olunan ən vacib məsələlərdəndir. Yeni texnologiyalar, həmçinin süni zəka elmə və insanlara xidmət etməli, bəşəriyyətə yalnız fayda verməlidir.

Monteneqronun sabiq müdafiə naziri Miliça Pejanoviç çıxışında qeyd edib ki, süni texnologiyalar lazım olan sahələrə dəyər qatmalıdır. Bu sahədə dünya liderlərin rolu hələ də məlum deyil.

İnnovasiyaların inkişafı üçün əlverişli məkanın vacibliyini vurğulayan Miliça Pejanoviç süni zəkanın mənfi məcrada dəyişilməsinə diqqət yetirməyin önəmindən söz açıb.

Şanxay Əməkdaşlıq Təşkilatının keçmiş baş katibi, Özbəkistanın sabiq xarici işlər naziri Vladimir Norov bu gün texnologiyaların gündəlik həyatımızı formalaşdırdığını, həmçinin siyasi sahəyə də təsir göstərdiyini deyib: "Bu həm də insan həyatının məxfiliyinə təsir göstərir. Burada hərtərəfli yanaşma olmalıdır". O, böyük texnoloji şirkətlərin etik davranışı qazancdan daha üstün tutduğunu qeyd edib.

Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru Fariz Cəfərov isə bildirib ki, Azərbaycanda Rəqəmsal İqtisadiyyatın İnkişafı üzrə Strategiya hazırlanıb. "Bizim üçün vətəndaşların rəqəmsal biliklərinin artırılması çox vacibdir. İnsanların süni zəkadan faydalanması üçün Azərbaycanda çox unikal sistem yaratmışıq. Hazırda biz 4SİM olaraq, İqtisadiyyat Nazirliyi və Vergi Xidmətinin "Çağrı mərkəzi"ndə zənglərin araşdırılması üçün məhz süni zəkanın tətbiqi üzərində işləyirik. Bir sıra sahələrdə Azərbaycanda artıq süni zəka tətbiq olunur. Vətəndaşların üzünün tanınması proqramını istifadəyə vermişik. Hazırda milyona yaxın vətəndaş bu proqramdan istifadə edir", - deyə Fariz Cəfərov diqqətə çatdırıb.

Panel iclas müzakirələrlə davam edib.

## Forumun sonuncu panel iclasında gənc liderlər çıxış ediblər

**"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu martın 15-də işini panel iclaslarla davam etdirib. Forumun sonuncu günündə dörd mövzuda panel iclasları keçirilib.**




AZƏRTAC xəbər verir ki, Forumun "Gənclər danışsın, biz dinləyək" mövzusunda sonuncu panel iclasının ikinci hissəsi "Sigma Squared"in baş katibi Assen Plevnelievin moderatorluğu ilə keçirilib. Panelin ikinci hissəsində gənc liderlər dünyada mövcud iqtisadi vəziyyəti və təhlükəsizlik məsələlərini müzakirə ediblər.

Latviya Respublikası Ədliyyə Nazirliyinin Dövlət hüquq departamentinin direktor müavini Marts Eduards İvaskis fəaliyyət göstərdiyi sahə ilə bağlı təcrübəsini bölüşüb, həmçinin indiyədək dezinformasiya və yanlış məlumat yayma kampaniyaları, sağ populist partiyalar və Avropa İttifaqı siyasəti ilə əlaqəli mövzularda çıxış etdiyini bildirib.

"Chatham House"da US və Amerika Proqramı üzrə "Schwarzman Academy Fellow" olaraq fəaliyyət göstərən Kanişx Kanodia hazırda tədqiqatlarının Birləşmiş Ştatların təhlükəsizlik və müdafiə siyasəti üzərində cəmləndiyini diqqətə çatdırıb. O, ABŞ-Çin münasibətləri və Hind-Sakit okean hövzəsində rəqabətlə bağlı məsələləri araşdırmaqla maraqlandığını deyib.

Aspen İnstitutu Beynəlxalq Partnyorları təşkilatının direktor müavini Savannah Lane bildirib ki, beynəlxalq münasibətlər sahəsində Vaşinqton, D.C.-də aparıcı proqramlar və siyasət direktoru olaraq fəaliyyət göstərir. O, xüsusən mədəniyyət diplomatiyası və qadın liderliyi sahələrinə yönəlir və beynəlxalq təhlükəsizlik mövzusunda ixtisaslaşır.

Savannah "NATO 2030 Global Fellowship" proqramını başladıb və bu təşəbbüsə NATO-nun İctimai Diplomatiya Bölməsi dəstək verib. Savannah TRT World, ANews və digər media orqanlarında beynəlxalq şərhçi kimi çıxış edib.

Əhmədiyyə Müsəlman İcması Əmirinin müşaviri Eiqan Əhməd Şams bildirib ki, Reyxman Universitetində hüquq üzrə bakalavr (LLB) və hökumət, beynəlxalq münasibətlər və strateji araşdırmalar üzrə bakalavr (BA) təhsili alır. O, Müqəddəs Torpaqda Əhmədiyyə Müsəlman İcmasının rəhbərinin müşaviri kimi bir çox konfransın təşkilində əsas rol oynayır. Bu səylər xüsusilə son müharibədən sonra ərəb və yəhudi icmaları arasında etimad və qarşılıqlı anlaşmanı gücləndirmək məqsədi daşıyır.

"İdeologiyanı bombalarla susdurmaq mümkün deyil. Terrorçuluqla mübarizədə müharibə yolunun sonu yoxdur", - deyə Eiqan Əhməd Şams bildirib.

Panel iclasın digər iştirakçısı - Çipata şəhərinin meri George Mvanza Zambiya tarixində 2021-ci ilin avqustunda ölkənin ən gənc seçilmiş meri kimi yer alıb. Onun şəxsi şüarı belədir: "İnklüziv, inkişaf etmiş və daha yaxşı Çipata şəhəri üçün".

"Biz 50 min ev təsərrüfatını su ilə təchiz etdik. İqlim böhranının insanların həyatına mənfi təsir göstərdiyi dövrdə biz Afrikada bələdiyyələrin əhalinin rifahının yaxşılaşdırılması istiqamətində fəaliyyətə yönləndirilməsini təşviq edirik", - deyə George Mvanza əlavə edib.

Digər çıxış edənlər öz ölkələrinin təcrübələrini bölüşməklə yanaşı, gənclərin səsinin eşidilməsi, idarəçilikdə və vacib qərarların qəbulunda onların da mövqeyinin nəzərə alınmasının vacibliyini vurğulayıblar.

Gənclər arasında yekun fikir mübadiləsindən sonra XII Qlobal Bakı Forumu öz işini yekunlaşdırıb.

## XII Qlobal Bakı Forumu sülhün təşviqinə töhfə verdi

**"Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən XII Qlobal Bakı Forumu beynəlxalq medianın diqqət mərkəzindədir. Forumda "Dünya düzəninin yenidən düşünülməsi: çağırışların fürsətə çevrilməsi" mövzusu ətraflı müzakirə olunub".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Mehriban Vəliyeva deyib. Foruma beynəlxalq marağın çox olduğunu deyən deputat əlavə edib ki, müzakirəyə çıxarılan məsələlər qlobal xarakter daşıyır və beynəlxalq ictimaiyyətin gündəmindədir. Dünyada köhnə düzənin pozulduğu, yeni şərtlərin meydana çıxdığı, münaqişələrin, müharibələrin şiddətləndiyi bir dönəmdə Bakıda belə bir mövzunun müzakirəyə çıxarılması olduqca böyük əhəmiyyət kəsb edir. Forumun müzakirə mövzuları sırasına "Geosiyasi dəyişmələr: Məsuliyyətli tərəfdaşlıq rəqabətə qarşı", "Çoxqütblü dünya üçün multilateralizmə yenidən baxılması" və "Gələcək üçün BMT paktı: Yeni qlobal konsensusun yaradılması" haqqında panellər daxildir. Həmçinin "Sülhə gedən yol", "Yeni dünya nizamında orta güclər" və "Sülh - münaqişə sonrası yenidənqurma və regional sabitliyin yenidən bərpası" mövzularında panellərlə yanaşı, Yaxın Şərq və Ukrayna-Avropa Birliyi məsələlərinə həsr olunmuş nahar sessiyaları keçirilib. Forumda yeni texnologiyalar, gender və təhlükəsizlik, iqlim dəyişikliyinin təsiri, qlobal səhiyyə böhranları və onların həlli yolları da diqqət mərkəzindədir. Forumun ən diqqətçəkən hissələrindən biri isə gənclərin fikirlərinə həsr edilən "Gənclər danışsın, biz dinləyək" panelidir.

Deputat qeyd edib ki, dünyada baş verən müharibələr, siyasi toqquşmalar, Qərbdə müşahidə olunan siyasi böhran inkişaf etməkdə olan ölkələri öz milli maraqlarını həmişəkindən daha güclü müdafiə etmələrini diktə edir: "Bu baxımdan XII Qlobal Bakı Forumu qlobal gündəliyi narahat edən məsələlərin müzakirə olunduğu nadir platformadır. Bu gün bütün ölkələrin maraqlarının, təhlükəsizliyinin qorunmasına xidmət edən digər beynəlxalq səviyyəli platforma yoxdur. Bakı Forumu artıq 12-ci dəfədir ki, qlobal problemlərin müzakirəsinə evsahibliyi edir. Ölkəmiz sülh və ədaləti dəstəkləyən niyyət və məqsədlərini bu dəfə də dünyaya bəyan etdi, bütün dövlətləri beynəlxalq hüquqa hörmətlə yanaşmağa səslədi. Bakı Forumu həm də Azərbaycanın prioritetlərini dünyaya təqdim etmək üçün unikal platformadır. Biz forum çərçivəsində ölkəmizin məqsədlərini və baxışlarını bir daha dünyaya çatdırdıq. Azərbaycan dünya düzəninin yenidən formalaşmasının tərəfdarıdır və bu prosesdə fəal rol oynamaq istəyir".

M.Vəliyeva bildirib ki, mövcud düzən özünü doğrultmur, günün tələblərinə, ölkələrin maraqlarına cavab vermir. Azərbaycan və Türkiyə də daxil olmaqla, əksər dövlətlər, xüsusilə də BMT-də ciddi islahatların aparılmasının vacibliyini vurğulayıblar. İkinci Dünya müharibəsinin nəticəsi olaraq meydana çıxan bu təşkilat yeni dünya çağırışlarına cavab vermir. Dünyanın taleyinin sadəcə beş dövlət tərəfindən həll edilməsi heç cür qəbul edilə bilməz. Azərbaycanın da aid olduğu türk və müsəlman dünyasından olan dövlətlərin BMT Təhlükəsizlik Şurasında təmsil olunmasına ehtiyac var. Yeni dünya modeli, əslində, qütblər və ya çoxqütblülük platformasına söykənir.

Artıq heç bir dövlətin hansısa siyasi, hərbi, iqtisadi birliyin diktəsi ilə oturub-durmaq istəmədiyini bildirən deputat qeyd edib ki, dövlətlər yeni birlik, ittifaqlar axtarışındadırlar. Qərbin patronajlığı altında yaradılmış birliklər özlərini daha çox neokolonializmin nümayəndələri kimi aparırlar və ayrı-ayrı ölkələri öz təsirləri altında saxlamağa çalışırlar. "Bu isə haqlı narahatlıqlar, narazılıqlar yaradır. Azərbaycan da son illər özünə yaxın bildiyi ittifaqlarda layiqincə təmsil olunur. 44 günlük Vətən müharibəsindən sonra yaratmış olduğumuz yeni reallıqlar imkan verir ki, biz özümüzün müstəqil yolumuzu müəyyənləşdirək və doğru bildiyimiz yöndə addımlayaq. Azərbaycan sülh razılaşması üçün ərazi bütövlüyünün və suverenliyinin tanınmasına əsaslanan beş əsas prinsipi Ermənistana təqdim edib. İrəvan yaranan yeni reallıqları qəbul etməli, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir. Bu öhdəliklərdən biri Zəngəzur dəhlizinin açılmasıdır. Bu dəhliz Şərq-Qərb marşrutunun üzərində yerləşir və alternativsiz marşrutdur", - deyə o əlavə edib.

Deputat bildirib ki, Azərbaycan yeni dünya düzəninin formalaşması prosesində yaxından iştirak etmək və özünün milli maraqlarını təmin etmək istəyir. Biz bunu gizlətmirik də. Bu mənada Qlobal Bakı Forumu multilateralizm böhranının aradan qaldırılmasına xidmət edir, xalqlar arasında körpü yaradır, müxtəlif ölkələr və beynəlxalq iştirakçılar arasında tərəfdaşlığı təşviq edir. Sülhə, əmin-amanlığa, qarşılıqlı əməkdaşlığa töhfələr verən Azərbaycan bu dəfə də özünün qlobal baxışlarını dünyaya təqdim etdi. Beləliklə, XII Qlobal Bakı Forumu əvvəlki illərdə olduğu kimi, qlobal çağırışların həlli üçün qiymətli təkliflərlə çıxış edərək, ortaq həll yollarının müəyyənləşdirilməsinə və sülhün təşviqinə töhfə verdi.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

GLOBAL BAKU FORUM

# XII Qlobal Bakı Forumu

*"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi"*




# Azərbaycan qlobal problemlərin həllində nüfuzlu söz sahibidir

## **Prezident İlham ƏLİYEV:** "Qafqazda öz milli maraqlarını güdən ölkə, yəni böyük bosslar qarşısında hər zaman "bəli, cənab" deməyən ölkə var"

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu son illərdə qlobal idarəçilik, diplomatiya və əməkdaşlığa yeni yanaşmaların müzakirəsində mühüm rol oynayır. Forumun qlobal gündəlikdəki vacib məsələlərin həllində aparıcı beynəlxalq platformalardan birinə çevrildiyini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimindəki çıxışında xüsusi vurğuladı.**

XII Qlobal Bakı Forumu Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün tarixinin ən qüdrətli çağlarını yaşayan Azərbaycanın beynəlxalq arenadakı nüfuzunun, qlobal səviyyədə söz sahibliyinin daha bir göstəricisidir. Forumda dünyanın müxtəlif ölkələrindən 400-ə yaxın aparıcı siyasətçinin, o cümlədən 50-dən artıq hazırkı və keçmiş dövlət, hökumət başçılarının, Nobel mükafatı laureatlarının, BMT təmsilçilərinin, alim və ekspertlərin iştirakı onun qlobal əhəmiyyətindən, beynəlxalq səviyyədə belə bir formatda fikir mübadiləsinə göstərilən diqqətdən xəbər verir. Mötəbər tədbirin müzakirələri geosiyasi dəyişikliklər, çoxqütblü dünyada çoxtərəfli əməkdaşlıq, münaqişədən sonrakı yenidənqurma və regional sabitliyin bərpası kimi aktual məsələləri əhatə edir.

Xüsusi vurğulanmalıdır ki, bu gün ətrafımızda baş verən geosiyasi təlatümlər, iqtisadi böhranlar, hərbi münaqişələr müasir dünyanın da qlobal əhəmiyyətli diskussiya imkanlarına nə qədər ehtiyacın duyulduğunu əyani şəkildə büruzə verir. Davam edən Rusiya-Ukrayna müharibəsi hazırda XXI əsr dünyasının bu gününü və gələcəyini müəyyən edən ən mühüm problemdir. Bu, təkcə hərbi əməliyyatlar demək deyil. Dünya bu müharibənin təsiri ilə yenidən siyasi, iqtisadi və texnoloji transformasiya prosesindən keçmək üçün olduqca məsuliyyətli yolu qət etmək reallığı ilə üz-üzə qalıb. XII Qlobal Bakı Forumu kimi tədbirlər bəşəriyyəti narahat edən və düşündürən çətinliklərin həlli üçün işıq yolunun tapılması və müəyyən edilməsi baxımından əlahiddə dərəcədə vacib müzakirə meydanıdır. Tam əminliklə demək olar ki, bu forum ötən illər ərzində üzərinə götürdüyü qlobal missiyanı uğurla davam etdirməkdədir.

### Dəyişən dünyada Azərbaycanın yeri və rolu

Prezident İlham Əliyevin tədbirdəki nitqi qlobal miqyasda artan təhdidlərin, yaranmış yeni vəziyyətlərin dəqiq və aydın təsviri, Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqların diqqətə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Dövlət başçısı çıxışında ilk növbədə ötən ilin sonlarında ölkəmizin uğurla evsahibliyi etdiyi COP29 və Azərbaycanın "yaşıl enerji" strategiyası məsələlərinə diqqət yönəltdi. Belə bir mötəbər tədbirin ölkəmizdə təşkilini Azərbaycana böyük etimadın göstəricisi olduğunu qeyd etdi. Prezident İlham Əliyev bərpaolunan enerjiyə ciddi sərmayə qoyulduğunu, ölkəmizin bərpaolunan enerji istehsal gücünün 2030-cu ilə qədər 6,5 gigavat artacağını, bunun da mövcud potensialı ikiqat artıracağını nəzərə çatdırdı. Bakının COP29-da bərpaolunan enerji layihələri üçün maliyyələşmənin 100 milyarddan 300 milyard dollara artırılmasına nail olduğunu xatırlatdı: "Bəli, bilirik ki, bəzi ölkələr bundan tam razı qalmadı. Onlar daha böyük artım istəyirdilər. Lakin düşünürəm ki, bizdə maliyyələşmənin üç dəfə artırılması lazımınca qiymətləndirilməlidir. Buna görə Bakıdakı COP29 "Bakı sıçrayışı" adlandırıldı və bu, mühüm irsdir".

Cənab İlham Əliyevin fikrincə, COP29-un əsas uğurlarından biri də 10 ildən artıq keçilməz nöqtə olan Paris Sazişinin 6-cı maddəsi üzərində konsensusun əldə olunmasıdır. Bu yöndə tərəflər razılığa gələ bilmirdi. Lakin Azərbaycan burada konsensus əldə edə bildi, karbon bazarını işlək hala gətirdi. Bütün bunlar prosesin gələcəkdə inkişafı üçün çox əhəmiyyətlidir. Azərbaycan Prezidentinin bu xüsusda toxunduğu məqamlar ölkəmizin qlobal enerji siyasətində daha çox "yaşıl enerji"yə istiqamətlənəcəyini və Avropaya enerji ixracında əsas iştirakçı olmaqda davam edəcəyini göstərir.

Dövlət başçısının COP29-a qarşı aparılan çirkin təbliğatın nümunəsində ölkəmizin hələ də hədəfə alındığına işarə etməsi tədbir iştirakçılarının Azərbaycana qarşı sürdürülən qərəzli kampaniya barədə məlumat almaları üçün olduqca vacib və ibarətamizdir: "Əfsuslar olsun ki, bu qlobal beynəlxalq tədbir bəzi Qərb medialarında kampaniya ilə müşayiət olundu. Prezident Tramp onları yalan, saxta xəbər adlandırır və onunla tam razıyam. Bu, Azərbaycanı gözdən salmaq, bizi qaralamaq, şayiələr və müxtəlif dezinformasiya yaymaq kampaniyası idi... Yəni deyirdilər, bir ölkə kimi biz qlobal, beynəlxalq tədbirin keçirilməsinə layiq deyilik. Bütün bunlar bir neçə mərkəzdən, əslində, ikisindən qaynaqlanırdı. Onlardan biri - ABŞ-nin Dövlət Departamenti idi. "Vaşinqton Post", "Nyu York Tayms", "Politico", "Newsveek" və "Assoşieyted Press" kimi yalan xəbər mənbələri sadəcə ABŞ Dövlət Departamentinin təlimatlarını icra edirdilər".

İkinci mənbənin isə Fransa Prezidentinin ofisi, cənab Makron, onların "Le Monde", "Fiqaro" və digər bu kimi saxta xəbər mətbuatının olduğunu vurğulayan Azərbaycan Prezidenti bildirdi ki, bu, COP29-un baykot edilməsinə yönəlmiş qarayaxma və böhtanın əlaqələndirilmiş kampaniyası idi. Bunun da müxtəlif səbəbləri ola bilər. Lakin onlardan biri ondan ibarətdir ki, onlar bizə öz iradələrini yeridə bilmədilər: "Onlar suverenliyimizin, ərazi bütövlüyümüzün tam bərpasına yönəlmiş siyasətimizi dəyişə bilmədilər. Onlar o faktla razılaşa bilmirdilər ki, burada, Qafqazda öz milli maraqlarını güdən ölkə, yəni böyük bosslar qarşısında hər zaman "bəli, cənab" deməyən ölkə var".

Hazırda daim inkişafda olan ölkəmizin logistika potensialı da getdikcə artır. Respublikamızın bu sahədə malik olduğu infrastruktur inkişaf etdirilir. Son geosiyasi dəyişikliklərdən irəli gələrək Azərbaycandan keçən yüklərin daşınması həcmi xeyli dərəcədə yüksəlib. Prezident İlham Əliyev ölkəmizin bunun üçün yaxşı hazır olduğunu, üzərimizə düşən işi artıq icra etdiyini vurğuladı. Qeyd etdi ki, indi son illər ərzində Azərbaycana istiqamətləndirilmiş bütün yükləri qəbul edə bilmək üçün sadəcə dəniz limanı, dəmiryolu infrastrukturunun buraxılış qabiliyyəti artırılmalıdır. Azərbaycanın təqdim etdiyi bütün bu imkanlardan, bölgəmizin müasir dünya üçün getdikcə artan geosiyasi əhəmiyyətindən dayanıqlı şəkildə faydalana bilmək üçün Cənubi Qafqazda daimi sülhün, təhlükəsizliyin təmin olunması da mühüm şərtdir və hazırda Azərbaycan həm də məhz buna çalışır.

### Ermənistana etimad səviyyəsi sıfra bərabərdir

Azərbaycan Prezidenti tədbirdə tarixi zəfərimizdən, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonra Ermənistanla münasibətlər məsələsinə dair mövqeyini bölüşdü. Düşmən ölkənin uzun illər ərzində apardığı işğalçılıq siyasəti, bunun regionumuzun inkişafına vurduğu ziyanlar, o cümlədən işğal dövründə Qarabağda, Şərqi Zəngəzurda törədilmiş dağıntılar haqqında söhbət açdı. Azərbaycanın bütün bunları, o cümlədən aralarında 60-dan çox uşağın, 100-dən artıq qadının olduğu 613 vətəndaşımızın ermənilər tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımını heç zaman yaddan çıxarmayacağımızı, lakin bununla belə gələcəyə baxmağın da vacibliyini bildirdi və Cənubi Qafqazda sülhə nail olmağın əhəmiyyətini vurğuladı. Bu baxımdan Azərbaycan sülh prosesinin təşəbbüskarı olub. Əslində, Azərbaycan hətta bu gün Ermənistanla müzakirə olunan və əsasən razılaşdırılmış sülh sazişi layihəsinin, həmin sülh müqaviləsinin müəllifidir. Bununla yanaşı, dövlət başçısı onu da qeyd etdi ki, indi Ermənistana etimad səviyyəsi sıfra bərabərdir: "Beləliklə, biz onların hər hansı bir sözünə inanmırıq. Çünki onlar elə insan deyillər ki, biz inana bilək, o cümlədən onların indiki hökuməti. Bir daha bütün bunlar göstərir ki, onların dediyi bizim üçün sıfır məna kəsb edir. Bizə sənədlər, yazılı kağızlar lazımdır".

Prezident İlham Əliyev sülhün əldə olunması üçün Ermənistan Konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarının çıxarılmasının, ATƏT-in Minsk qrupunun buraxılmasının vacibliyini bildirdi. Ermənistanın silahlanmasının onların yeni müharibəyə hazırlaşmasının göstəricisi olduğunu diqqətə çatdırdı. Azərbaycan Prezidenti dedi: "Kim onları yenidən müharibəyə sürükləyir? Fransa və onun Prezidenti. Onların Ermənistanı təchiz etdiyi məhvedici silahlar bizə qarşı yönəlir. Bu gün başqa yerdə lazım ola biləcək "Sezar" haubitsaları Ermənistana göndərilir. Əslində, Avropa İttifaqının kəşfiyyat missiyası olan dırnaqarası Avropa monitorinq missiyası gecə-gündüz casus kimi sərhədlərimizdə dayanır və baxırlar ki, bəlkə haradan, bir yerdən girə bilsinlər. Bizim də həmin dırnaqarası monitorinq missiyası barədə kifayət qədər kəşfiyyat məlumatımız var. Avropanın Sülh Fondu milyonlarla dolları Ermənistanı silahlandırmaq üçün ona verir".

### İndi məsuliyyətli olmaq vaxtı yetişib

Dövlət rəhbərimiz yada saldı ki, Azərbaycan bu məsələni dəfələrlə erməni nümayəndələrinin və onların Brüsseldəki yeni ağalarının qarşısında qaldırıb. Çünki onlar indi böyük qardaşlarını dəyişiblər. Bu gün bu, Brüsseldir. Prezident Trampın qələbəsinə qədər bu, Dövlət Departamenti, USAID idi. "Məhz indi ciddi problemlərlə üzləşən Menendes kimi rüşvətxor Amerika siyasətçiləri idi. Menendes siyahıda hələ sonuncu deyil". Azərbaycan Prezidenti bu sırada Adam Şifin, Frenk Pallonenin, xanım Nensi Pelosinin də adını çəkdi, onların onilliklər ərzində Azərbaycana hücum çəkmək, ölkəmizi gözdən salmaq üçün ABŞ-də erməni diaspor təşkilatlarından pullar aldıqlarını vurğuladı və bildirdi ki, indiki vaxtda biz Prezident Trampa bataqlığın qurudulmasında uğurlar arzu edirik. Bu, asan deyil. Lakin edilməlidir. USAID-in Azərbaycanda qeyri-qanuni fəaliyyəti ilə bağlı Amerikanın orqanları ilə məlumat mübadiləsi aparılmalıdır: "Onlar insanlara necə rüşvət verirdilər?! Onlar qeyri-qanuni maliyyə kanallarından necə istifadə edirdilər?! Onlar Azərbaycanın qanunlarını və normalarını necə pozurdular?!" deyən Azərbaycan Prezidenti çıxışında indi məsuliyyətli olmaq vaxtının yetişdiyini söylədi.

Prezidentin çıxışı ABŞ-də hakimiyyət dəyişikliyindən sonra Azərbaycan-ABŞ münasibətlərinin gələcək konturlarının təsəvvürü baxımından da böyük maraq doğurdu. Cənab İlham Əliyev vurğuladı ki, ABŞ-nin keçmiş Dövlət katibi Entoni Blinkenin Azərbaycana aid siyasəti, əslində, 30 il ərzində qurulmuş ABŞ-Azərbaycan münasibətlərini heçə endirib. Halbuki Azərbaycan hər zaman bu ölkənin çox etibarlı və yaxın tərəfdaşı olub.

Toplantıda həm də qeyd olundu ki, Azərbaycan ABŞ Dövlət Departamentinin bütün səylərinə baxmayaraq, iki ölkə arasındakı münasibətləri uçurumdan tam xilas edib. Ümid edirik ki, yeni administrasiya ilə Cənubi Qafqaz, sülh, təhlükəsizlik, antiterror əməliyyatları, regionumuzun müasir inkişafı üçün hər zaman vacib olmuş güclü tərəfdaşlığımız yenidən qurulacaq.

### Dəyişən dünyaya yeni baxış

Azərbaycan Prezidentinin diqqətə çatdırdığı məqamlar "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunun müasir qlobal dəyişikliklər fonunda nə qədər aktual olduğunu göstərir. Bunun bir neçə əsas səbəbi var. Məlumdur ki, müasir dünyamızda mühüm geosiyasi və geoiqtisadi dəyişikliklər baş verir, yeni güc balansları formalaşır. ABŞ, Çin, Rusiya və Avropa İttifaqı kimi güc mərkəzləri arasındakı rəqabət qlobal düzəni yenidən dizayn edir. Bundan başqa, regional münaqişələr, o cümlədən Ukrayna-Rusiya müharibəsi, Yaxın Şərqdəki gərginliklər və digər hərbi konfliktlər də dünya siyasətinə əhəmiyyətli şəkildə təsir göstərir. O cümlədən ticarət müharibələri və sanksiyalar günümüzün son dərəcə əhəmiyyətli reallıqlarındandır. Qlobal iqtisadiyyatın yeni qaydaları formalaşır, ölkələr iqtisadi strategiyalarını yenidən nəzərdən keçirir.

Həmçinin texnoloji və rəqəmsal inqilabın müasir dünya düzənində özünəməxsus yeri vardır. Süni intellekt və avtomatlaşdırma əmək bazarını, iqtisadiyyatı və hətta idarəçilik sistemlərini dəyişir. Bir sıra mühüm imkanlar yaratdığı qədər bəşəriyyətin bu günü və gələcəyi üçün ciddi təhdidlər də formalaşdırır. Xüsusilə kibertəhlükələr hazırda dövlətlər və şirkətlər üçün əsas çağırışlardandır. Müasir dünyamızda maliyyə sistemi də dəyişməkdədir. Rəqəmsal valyutalar və blokçeyn texnologiyaları ilə ənənəvi qlobal maliyyə sistemi özünün tarxi keçid dövrünü yaşayır.

Eyni zamanda iqlim dəyişikliyi və enerji təhlükəsizliyi, qlobal istiləşmə və təbii fəlakətlər çağdaş dünyamızın əsas çağırışlarındandır. Bütün bunlar ölkələrin iqtisadiyyatlarına, infrastruktur sistemlərinə də ciddi şəkildə təsir göstərir. Bir çox ölkədə sürətli şəkildə enerji keçidi baş verir.

Bütün bunlara paralel olaraq siyasi və ictimai sabitlik çağırışları da güclənir. Siyasi populizmin yüksəlişi və sosial qütbləşmənin gücləndiyi müşahidə olunur. Bir çox ölkədə daxili qeyri-sabitlik artır. İnsan hüquqları və miqrant böhranı qlobal idarəçilik mexanizmlərinə ciddi çətinliklər törədən mühüm problemlər kimi getdikcə ölkələrə, xalqlara, ümumilikdə dünya düzəninə mühüm təhdidlər yaradır. Bütün bunların müqabilində beynəlxalq təşkilatların da böhran keçirdiyi duyulur. Uzun illər ərzində dünya düzəninin formalaşmasında, nizamlanmasında mötəbər söz sahibi sayılmış BMT və digər beynəlxalq təşkilatların rolunun zəiflədiyi, nüfuzunun azaldığı göz önündədir. Bu gün qlobal problemlərin həllində ənənəvi institutların rolu sual altına düşür.

Yeni çoxqütblü dünya düzəninin formalaşması, ABŞ və Qərbin dominantlığı zəiflədiyi üçün yeni əməkdaşlıq formatlarının yaranması da müasir dünyamızın bariz reallıqlarındandır. Beləliklə, qlobal dəyişikliklər və qeyri-müəyyənliklər fonunda çağırışları fürsətə çevirmək üçün yeni strategiyalar və yanaşmalar tələb olunur.

XII Qlobal Bakı Forumunun bu mövzuya həsr edilməsi Azərbaycan da daxil olmaqla bir çox ölkənin gələcək qlobal trendləri düzgün analiz etmək və onlara uyğunlaşmaq istəyinin göstəricisidir.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

### “Fövqəladə ehtiyatların nomenklaturası”nın təsdiq edilməsi və “Fövqəladə hallarda istifadə olunması nəzərdə tutulan dövlət ehtiyatlarının nomenklaturası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 aprel tarixli 137 nömrəli Qərarının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 70** **Bakı şəhəri, 12 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 19 dekabr tarixli 1055-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 fevral tarixli 2463 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Fövqəladə ehtiyatların nomenklaturası" təsdiq edilsin (əlavə olunur).

2. "Fövqəladə hallarda istifadə olunması nəzərdə tutulan dövlət ehtiyatlarının nomenklaturası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 aprel tarixli 137 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2023, № 4, maddə 606 (Cild I) ləğv edilsin.

3. Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi və digər məsul saxlayıcılar bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

### “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun 37.1-37.4-cü maddələri ilə müəyyən edilmiş tələblərə uyğun yerinə yetirilməsinə nəzarətin və həmin Qanunun 37.3-37.5-ci maddələrində nəzərdə tutulmuş uçuş əməliyyatlarının, o cümlədən xüsusi şəraitlərdə uçuş əməliyyatlarının həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 75** **Bakı şəhəri, 12 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.20-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 37.1-37.4-cü maddələri ilə müəyyən edilmiş tələblərə uyğun yerinə yetirilməsinə nəzarətin və həmin Qanunun 37.3-37.5-ci maddələrində nəzərdə tutulmuş uçuş əməliyyatlarının, o cümlədən xüsusi şəraitlərdə uçuş əməliyyatlarının həyata keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

### “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin ”Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişiklik edilməsi, “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin aparatının Xüsusi təyinatlı idarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” 2018-ci il 8 avqust tarixli 347-26 nömrəli, “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında” 2018-ci il 30 avqust tarixli 363-27 nömrəli, “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” 2019-cu il 22 aprel tarixli 184-8 nömrəli və “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli və “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin aparatının Xüsusi təyinatlı idarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 8 avqust tarixli 347-26 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə” 2019-cu il 2 may tarixli 206-11 nömrəli qərarlarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 388 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 73** **Bakı şəhəri, 12 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 304 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 388 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1542 (Cild I); 2024, № 9, maddə 1105) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

### “Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və kursantlar istisna olmaqla) aylıq pul təminatının, ərzaq payı əvəzinə pul kompensasiyasının və mülki işçilərinin əməkhaqlarının məbləğlərinin təsdiq edilməsi barədə” 2008-ci il 15 sentyabr tarixli 213-25 nömrəli, “Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarlarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişikliklər edilməsi barədə” 2018-ci il 17 iyul tarixli 305-23 nömrəli, “Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişiklik edilməsi barədə” 2019-cu il 2 may tarixli 205-10 nömrəli, “Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişikliklər edilməsi barədə” 2019-cu il 10 may tarixli 215-12 nömrəli və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”ndə dəyişikliklər edilməsi barədə” 2019-cu il 10 iyun tarixli 263 nömrəli qərarlarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 391 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 74** **Bakı şəhəri, 12 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 303 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 391 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1545 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi);

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan-Mərakeş dostluq əlaqələri möhkəmlənir



**Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Mərakeş Krallığının paytaxtı Rabatda Azərbaycan icması və Mərakeş-Azərbaycan Dostluq Assosiasiyasının üzvləri ilə görüşüb.**

Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbir Mərakeş Krallığının və Azərbaycan Respublikasının Dövlət himnlərinin səsləndirilməsi, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən Vətən oğullarının əziz xatirəsinin ehtiramla yad olunması ilə başlayıb. Komitə sədri bildirib ki, diaspor siyasəti Prezident İlham Əliyevin rəhbərliyi altında yeni meyarlarla zənginləşib və xaricdə yaşayan azərbaycanlılarla əlaqələr daha da intensivləşib. Azərbaycan Respublikasının Mərakeş Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Nazim Səmədov ölkələrimiz arasında dostluq əlaqələrinin daha da möhkəmləndiyini və Mərakeşdəki icmamızın bu sahəyə töhfələr verdiyini bildirib.

Mərakeş-Azərbaycan Dostluq Assosiasiyasının prezidenti Məhəmməd Fakiri görüşün təşkilinə görə komitəyə təşəkkür edib, bundan sonra assosiasiyanın Azərbaycan icması ilə əlaqələrinin daha da dərinləşəcəyinə inamını ifadə edib.

Diasporla İş üzrə Dövlət Komitəsinin və diasporun həyata keçirdiyi çoxyönlü layihələr, xaricdəki Azərbaycan evləri, koordinasiya şuraları, həftəsonu məktəbləri və digər vacib istiqamətlər barədə ətraflı məlumat verilib, dövlət başçısının Qarabağda qazanılan qələbə ilə bağlı çıxışlarının yer aldığı videoçarxlar nümayiş olunub.

Vaxtilə Azərbaycanda təhsil alan mərakeşlilər Azərbaycan icması ilə keçirilən görüşü yüksək qiymətləndirib, dövlət-icma əlaqələrinin inkişafına yeni töhfələr verməyə hazır olduqlarını dilə gətiriblər.

Soydaşlarımız xaricdəki icmalarımıza göstərilən diqqətə görə Azərbaycan dövlətinə minnətdarlıqlarını bildirib, diaspor fəaliyyətinin gücləndirilməsi, Azərbaycan həqiqətlərinin yerli ictimaiyyətə daha geniş çatdırılması ilə bağlı fikirlərini bölüşüb, təkliflərini səsləndiriblər.

# *Müfti Ravil QAYNUTDİN:* "İslam dünyası Qarabağın bərpasında Azərbaycana kömək etməyə hazırdır"

**"İşğalçıların təhqir etdiyi, mal-qara saxladığı məscidləri əyani şəkildə görmüşəm".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Rusiya Müsəlmanları Ruhani İdarəsinin sədri, müfti Ravil Qaynutdin Azərbaycanın bu ölkədəki səfiri Rəhman Mustafayev ilə görüşü əsnasında söyləyib.

Müfti deyib: "Biz Azərbaycanın öz suverenliyinin bərpası və tarixi torpaqlarının azad edilməsi uğrunda apardığı ədalətli mübarizəyə ilk dəstək verənlərdən olduq. Azərbaycanın Qələbəsinə sevindik və işğal olunmuş torpaqlar azad ediləndən sonra ilk təbrikləri göndərdik. Bunu həm Azərbaycan Prezidenti, həm də Azərbaycan xalqı çox ciddi qiymətləndirdi".

O, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə də dərin təşəkkürünü bildirib, onu böyük qardaşı hesab etdiyini vurğulayıb.



"Mən Şeyxülislam Allahşükür Paşazadəyə işğaldan azad edilmiş Qarabağ torpaqlarını ziyarət etmək dəvətinə görə səmimi-qəlbdən təşəkkür edirəm. Şuşa şəhərinin bərpa olunmuş məscidində namaz qılmaq mənim üçün xüsusi şərəf idi. Azərbaycan Prezidenti cənab İlham Əliyevin çıxış etdiyi məsciddə Uca Allah mənə də namaz qılmaq imkanı verdi. Bu məscid möhtəşəm, saf, müqəddəsdir və orada islam tarixinin ruhu hiss olunur", - deyə müfti qeyd edib.

Rusiya Müsəlmanları Ruhani İdarəsinin sədri Qarabağda islam irsinin bərpasının bütün islam dünyası tərəfindən dəstəkləndiyini vurğulayıb. O deyib: "İslam dünyası məscidlərin bərpasında Azərbaycana kömək etməyə hazırdır. Biz, Rusiya müsəlmanları da bu nəcib işə qoşulacağıq. Bizim milyonlarla müsəlmana müraciət etmək, vəsait toplamaq və onları Qarabağın müqəddəs yerlərinin bərpasına yönəltmək imkanımız var".

R.Qaynutdin əlavə edib ki, əsl dostluq təkcə sülh dövründə yox, həm də çətin zamanlarda sınanır.

"Dostlar təkcə sevincdə deyil, həm də çətin anlarda - evlərin, xüsusən də məscidlərin yenidən qurulması lazım olanda orada olmalıdır. Azərbaycanlı qardaşlarımızın yanında olacağıq - duada da, mənəvi dəstəkdə də, real yardımda da. İnşallah. Biz bilirik ki, islam dünyası - Azərbaycanın dostları da öz dəstəyini verəcəklər".

Müfti Rusiya Müsəlmanları Ruhani İdarəsinin iştirakı ilə yaradılmış Beynəlxalq Müsəlman Forumunun mütəmadi olaraq müxtəlif ölkələrin paytaxtlarında keçirildiyini bildirib və 2025-ci ildə forumun Bakıda keçiriləcəyinə ümidvar olduğunu deyib.

O, həmçinin vurğulayıb ki, Rusiyanın müsəlman icması bu ilin mayında keçiriləcək İslamofobiya ilə Mübarizə üzrə Bakı Beynəlxalq Konfransını dəstəkləyir və onun həmtəsisçisi kimi çıxış etməyə hazırdır.

Öz növbəsində Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev görüşün əhəmiyyətini qeyd edərək, onun ramazan ayının müqəddəs günlərində baş tutduğunu vurğulayıb.

Səfir Rəhman Mustafayev Azərbaycan ilə Rusiya arasında dostluq və müttəfiqlik əlaqələrinin möhkəmləndirilməsində Rusiya Müsəlmanları Ruhani İdarəsinin mühüm rolunu qeyd edib, iki ölkənin müsəlman icmaları və digər konfessiyaları arasında dialoqun vacibliyini qeyd edib. O həmçinin iki ölkənin təhsil müəssisələri arasında dinlərarası və millətlərarası tolerantlıq və qarşılıqlı anlaşma mühitinin gücləndirilməsinə yönəlmiş birgə layihələrin həyata keçirilməsinin zəruriliyini vurğulayıb.

Söhbət əsnasında R.Mustafayev müfti R.Qaynutdinə və Rusiya Müsəlmanları Ruhani İdarəsinə Qarabağ münaqişəsinin tam həllində Azərbaycanın ədalətli mövqeyinə və dəstəyinə görə təşəkkür edib.

# Leyla Əliyeva və Arzu Əliyeva şəhid anaları ilə iftar məclisində iştirak ediblər










**Martın 14-də Heydər Əliyev Fondunun dəstəyi ilə müqəddəs Ramazan ayında daha bir iftar süfrəsi təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva iftar məclisində iştirak ediblər.

İftar süfrəsinə Azərbaycanın müxtəlif bölgələrindən və ucqar kəndlərindən şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, qazilər dəvət olunublar.

Mərasimdə "Qurani-Kərim"dən ayələr və şəhidlərimizin ruhuna dualar oxunub.







Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuzun şücaətindən və torpaqlarımızın erməni işğalından azad edilməsindən, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının qəhrəmanlıqlarından danışıblar. Həmçinin dövlətimizə, xalqımıza xoş günlər, firavanlıq, əmin-amanlıq, şəhidlərimizə rəhmət, qazilərə cansağlığı, Rəşadətli Azərbaycan Ordusunun mənsublarına güc-qüvvət arzulanıb, ölkə rəhbərliyinə minnətdarlıq ifadə olunub.

"Fire Land Group"un "Mənim oğlum qəhrəmandır" layihəsi çərçivəsində Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil olunan tədbirdə daha sonra Azərbaycanın tanınmış incəsənət xadimləri çıxış edib.

Qeyd edək ki, Vətən uğrunda şəhid olan qəhrəmanlarımızın yad edildiyi, onların ailələrinin iştirak etdiyi "Mənim atam qəhrəmandır" və "Mənim oğlum qəhrəmandır" layihələri çərçivəsində silsilə tədbirlər təşkil olunur. Şəhid ailələrinin iştirakı ilə keçən bu cür tədbirlər indiyədək bir sıra rayonları əhatə edib.

# Heydər Əliyev Mərkəzində heykəltaraş Andrey Ostaşovun "Qızılgülün sirri" sərgisi açılıb













**Martın 14-də Heydər Əliyev Mərkəzində belaruslu heykəltaraş Andrey Ostaşovun "Qızılgülün sirri" ("The mystery of the rose") sərgisinin açılışı olub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.

Sərgidə müəllifin "Yuxulara səyahət", "Pişik-qız və tısbağa rəqsi", "Yelpik və albalı", "Ürəklə qız", "Günəşin uşaqları", "Hind fili və kəpənəklər" kimi ilk dəfə məhz Bakıda tamaşaçı qarşısına çıxardığı əsərləri də yer alıb.

Jurnalistlərə müsahibəsində heykəltaraş Andrey Ostaşov Bakıda açılan sərgisinin bəlkə də onun üçün ən böyüklərindən olduğunu dedi: "Burada 80-ə yaxın heykəl toplanılıb. Böyük məmnunluq hissi keçirirəm ki, işlərimi Azərbaycanda nümayiş etdirmək imkanım yaranıb. Ümid edirəm ki, ziyarətçilər bəyənəcəklər".







Sərginin əsas mövzusunun insan duyğularına, qadın və kişi, daxili dünyanın gözəlliyinə həsr olunduğunu qeyd edən heykəltaraş məhz ona görə də sərginin "Qızılgülün sirri" adlandırdığını bildirib. "Qızılgül özünü qoruyan çiçəkdir, lakin içəridə incə bir canlıdır", - deyə o əlavə edib.

Tədbirin açılışında çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov Andrey Ostaşovun yaradıcılığı ilə təsadüfən qalereyalardan birində tanış olduğunu dedi: "Həqiqətən məni heyrətləndirən yeni əsərlər gördüm. Andrey və əziz kuratorumuz İrina xanıma belə gözəl bir sərgini həyata keçirə bildiyimiz üçün təşəkkürümü bildirirəm. Əminəm ki, hamı onu bəyənəcək".

Milli Məclisin Mədəniyyət komitəsinin sədri, Xalq artisti Polad Bülbüloğlu Andrey Ostaşovun adının bütün dünyada kifayət qədər məşhur olduğunu bildirib: "Sərginin bu gözəl binada - Heydər Əliyev Mərkəzində keçirilməsi heykəltaraş üçün başqa bir mərhələdir. Mən sizə böyük uğurlar arzulayıram və hər il olmasa da, ən azı bir neçə ildən bir Bakıda öz sərgilərinizi təşkil edəsiniz və sənətinizlə bizi sevindirəsiniz".

Heykəltaraşın həyat yoldaşı, sərginin kuratoru İrina Kolomenskaya sərgidə bu qədər sənətsevərlərin toplanmasının çox həyəcanverici hiss olduğunu deyərək, Andrey Ostaşovun işlərinin Heydər Əliyev Mərkəzinin zallarında nümayiş olunması ideyasına görə minnətdarlığını bildirib.

1970-ci ildə Belarusda doğulan Andrey Ostaşovun rəssam kimi formalaşmasında Belarus, Rusiya və Avropa incəsənət məktəblərinin təsiri olub.

Onun əsərlərində gözəllik mütləqdir və o, artıq yox olmaqda olan estet-filosoflar nəslinə aid rəssamdır. Heykəltaraş yaradıcılığında Uzaq Şərq regionunun məişət əşyaları və tətbiqi sənətin, samuray və Teddi oyuncaq ayılarının, nağıl şahzadələrinin və şamanların təsvirləri ilə cəsarətlə oynayır.

Belarus Rəssamlar İttifaqının üzvü, 100-dən çox respublika və beynəlxalq sərginin iştirakçısı, incəsənət və memarlıq müsabiqələrinin laureatı olan Andrey Ostaşovun əsərləri Belarusun Milli İncəsənət Muzeyinin daimi ekspozisiyasında, Avropa və Asiyada şəxsi kolleksiyalarda saxlanılır.

Heykəltaraşın fərdi sərgiləri Monako, Paris, Pekin, Sankt-Peterburq, Tbilisi, Şanxay, Vyana və s. şəhərlərdə təşkil olunub.

Daş və bürünclə işləyən Andrey Ostaşov ilk növbədə forma və xətt yaradıcısı, tunc və daş işində mütəxəssis, səth və həcm yaradıcısıdır. Andrey Ostaşovun əsərlərini fərqləndirən amillərdən biri də miniatürlükdür. Bu isə memarın ustadlığını bir daha nümayiş etdirir.

Andrey Ostaşov yaradıcılıq materialları toplamaq məqsədilə dünyanın müxtəlif yerlərinə, xüsusilə də Asiya ölkələrinə çoxlu səyahət edir. Müəllifin xüsusi marağı isə insanın daxili aləmidir. Təsadüfi deyil ki, Bakı sərgisi də "Qızılgülün sirri" adlanır. Bu çiçək eyni anda zahiri gözəlliyi və mənəvi dərinliyi, əlçatmazlığı və əzəməti, gücü və həssaslığı ehtiva edir. "Qızılgülün sirri" hər kəs üçün fərqli və unikaldır. Heykəltaraş bizi yenidən bu dərin və gözəl səyahətə - öz daxili dünyamıza dəvət edərək eksponatlarının mənasını tapmağa və bu prosesin iştirakçısına çevrilməyə çağırır.












# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Avropa Parlamentinin 2025-ci il martın 13-də qəbul etdiyi qətnamə ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin Avropa Parlamentinə etiraz məktubu

Biz Avropa Parlamentinin 2025-ci il martın 13-də qəbul etdiyi "Erməni girovların qanunsuz tutulması və qondarma məhkəmə prosesləri" adlı əsassız, qeyri-obyektiv və qərəzli qətnaməyə qəti etirazımızı bildiririk. Suverenlik, qanunun aliliyi və ədalət prinsiplərinin saya alınmadığı bu qətnamədə Azərbaycanın ağır cinayətlərdə iştirak etmiş şəxsləri məhkəmə qaydasında təqib etmək kimi qanuni hüququ tanınmır. Bundan əlavə, qətnamədə son otuz il ərzində mövcud olmuş tarixi şəraitə və Ermənistanın qanunsuz hərəkətləri nəticəsində Azərbaycan xalqının çəkdiyi böyük iztirablara bilərəkdən göz yumulur.

Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini 30 ilə yaxın işğal altında saxlamış, dinc Azərbaycan vətəndaşlarına qarşı saysız-hesabsız müharibə cinayətləri törətmişdir. Bu cinayətlərə etnik təmizləmə, insan hüquqlarının ciddi pozuntuları və Azərbaycanın mirasının sistemli şəkildə məhv edilməsi də daxildir. Avropa Parlamenti bu vəhşiliklər, o cümlədən Xocalı soyqırımı barəsində daim susmağa üstünlük vermişdir. Bu soyqırımı aktı zamanı erməni silahlı qüvvələri uşaqlar, qadınlar və qocalar da daxil olmaqla 613 günahsız insanı qəddarcasına qətlə yetirmişlər. Azərbaycanın itkin düşmüş 4 minə yaxın dinc sakininin taleyi hələ də məlum deyil, lakin selektiv və qərəzli yanaşmaya əsaslanan Avropa Parlamenti bu cinayətləri görməzdən gəlir, çünki Azərbaycana qarşı haqsız və saxta iddiaları üstün tutur.

Beynəlxalq hüquqa və BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan silahlı separatçılıq, sülh və insanlığa qarşı cinayətlər, müharibə cinayətləri və terrorçuluq da daxil olmaqla, ağır cinayətlərdə təqsirli bilinənləri məsuliyyətə cəlb etmək üçün tam qanuni hüquqa malikdir. Qətnamədə Azərbaycanın 2023-cü ildə "blokada" və "etnik təmizləmə" həyata keçirməsi barədə irəli sürülən ittihamlar başqa bir şey deyil, diqqəti haqsızlığın əsl günahkarlarından - onilliklər ərzində Azərbaycan torpaqlarını işğal etmiş, 750 min azərbaycanlını zorla yurdlarından qovmuş və işğal altında saxladıqları bütün şəhər və kəndləri yerlə-yeksan etmiş Ermənistan silahlı qüvvələrindən yayındırmağa yönələn siyasi motivli uydurmalardır.

Qeyd edilməlidir ki, Qarabağ bölgəsinin Azərbaycanın Konstitusiya çərçivəsinə yenidən inteqrasiyası beynəlxalq hüquqa tam uyğun həyata keçirilmişdir. Bu baxımdan Avropa Parlamentinin "sanksiyalar", sazişlərin "dayandırılması" və diplomatik məhdudiyyətlər barədə çağırışları Azərbaycanın daxili işlərinə qarışmaq üçün göstərilən qəbuledilməz cəhdlərdir. Bu cür siyasi motivli hərəkətlər regionda sabitliyə xidmət etmir, əksinə, yalnız gərginliyi artırır və davamlı sülhə nail olmaq perspektivlərini sarsıdır.

Azərbaycan haqq-ədalətə, beynəlxalq hüquqa və regional sülh gündəliyinə sadiq olaraq qalır. Heç bir xarici müdaxilə və ya ədalətsiz ittiham bizi qanunun aliliyini qorumaqdan və ölkəmizə qarşı cinayət törədənləri məsuliyyətə cəlb etməkdən çəkindirə bilməz. Hazırda məhkəmə qarşısına çıxarılan şəxslər hərbi əsirlər deyil, Azərbaycan qanunvericiliyini pozmuş, ədalətli və şəffaf məhkəmə prosesi çərçivəsində məsuliyyətə cəlb edilməli olan cinayətkarlardır. Bütün tərəflər belə bir reallığı qəbul etməlidirlər ki, Azərbaycan öz xalqını və ərazisini qanunsuz işğaldan və silahlı separatizmdən qorumaq kimi suveren hüququnu həyata keçirir. Beləliklə, Avropa Parlamentinin qətnaməsi sülhü və ya ədaləti deyil, düşmənçiliyi qızışdırmaq və birtərəfli siyasi gündəliyi təşviq etmək cəhdidir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Avropa Parlamentini sülhə və barışığa qarşı yönələn siyasi motivli hərəkətlərə yol verməkdənsə, ədalət və suverenlik prinsiplərinə hörmət bəsləməyə çağırırıq. Yalnız haqq-ədalət və qarşılıqlı anlaşma sayəsində Cənubi Qafqazda həqiqi sabitlik əldə edilə bilər.

# Ermənistanın növbəti manipulyasiya cəhdi

## Bu cür bəyanatlar sülhə hazırlıqdan daha çox başqa məqsədlərə xidmət edir

**Ermənistan sülh sazişi ilə bağlı Azərbaycanın iki əsas şərtini guya qəbul etdiyini bildirərək bununla sülhə hazır olduğu görüntüsü yaradır. Son günlərdə Ermənistan rəsmiləri tərəfindən Azərbaycanın ittiham olunması, özlərini "sülh göyərçini" kimi təqdim edərək sazişin bağlanmasına Azərbaycanın maneə olduğu imicini formalaşdırmağa çalışması da bunu təsdiqləyir. Amma Ermənistanın militarizasiya siyasəti onun yenidən müharibəyə hazırlaşdığını göstərir.**



Bu fonda dünya ictimaiyyətinin fikrini başqa istiqamətə yönəltmək üçün İrəvan Azərbaycanın şərtlərini guya qəbul etdiyini deyərək pərdələnir. Lakin Ermənistanın bu üzü hər kəsə yaxşı bəllidir. Bu baxımdan nələrisə öhdəliyə götürmək, müxtəlif kürsülərdən yalan fikirlər səsləndirmək Azərbaycanı qane etmir. Çünki bütün bunların əməldə təsdiqi lazımdır. Ermənistan ilk olaraq konstitusiyasına dəyişiklik etməli, Minsk qrupunun ləğvi ilə bağlı Azərbaycanla razılığa gəlməli, kommunikasiyaların açılmasına şərait yaratmalıdır.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Fuad Abdullayev qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanın xarici işlər naziri Ermənistanın son iki şərti qəbul etməsi və sülh layihəsinin son mətni üzərində razılaşmanın əldə edilməsi barədə məlumat verib. Lakin qeyd etmək lazımdır ki, buna paralel olaraq XİN rəhbəri, Azərbaycanın digər vacib tələblərinin yerinə yetirilməsinin əhəmiyyətinə də toxunub. Xüsusilə Ermənistan konstitusiyasının dəyişdirilməsinin gözlənildiyini qeyd edib. Belə ki, Ermənistan tərəfi Azərbaycanın ərazi bütövlüyünü tanımayan və ərazi iddialarını davam etdirən konstitusiya ilə fəaliyyət göstərir. "Bu səbəbdən Ermənistanın konstitusiyasını dəyişdirməsi məsələsi çox vacibdir, çünki yalnız bundan sonra Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə qarşı olan iddialarına son verməsi mümkündür. Bununla yanaşı, Azərbaycanın digər şərtlərinin də yerinə yetirilməsi zəruri hesab edilir. Mətn üzrə işin yekunlaşdırılması hələ ki sülh müqaviləsinin imzalanması anlamına gəlməməlidir. Hazırda yalnız 15 maddəlik bir sənəd üzərində razılaşma var



və bu, müqavilənin dərhal imzalanacağı anlamına gəlmir", - deyə o əlavə edib.

Siyasi şərhçi qeyd edib ki, hazırda bununla bağlı rəsmi İrəvandan da bəzi açıqlamalar verilir. Həmin açıqlamara diqqət yetirsək müqavilə artıq bağlanmış kimi görünür. Lakin reallıq ondan ibarətdir ki, razılaşma hələ tamamlanmayıb.

Ekspert bu açıqlamaların sadəcə olaraq Ermənistanın xarici siyasətinin müəyyən təzyiq strategiyasının bir hissəsi olduğunu və onlar tərəfindən səslənən bu cür bəyanatların, əslində, Azərbaycanın beynəlxalq müstəvidə təzyiq altına alınmasına yönəlmiş bir manipulyasiya olduğunu istisna etmir: "Bu açıqlamalar mövcud reallıqla da müəyyən ziddiyyətlər təşkil edir. Belə ki, Azərbaycana ərazi iddialarını ehtiva edən konstitusiyanın dəyişdirilməsinə bir çox maneənin olmasına baxmayaraq, rəsmi İrəvanın bu qəbildən olan bəyanatları böyük sual doğurur. İlk növbədə onu qeyd edim ki, Ermənistanın ədliyyə naziri S.Qalyan yeni konstitusiya mətninin 2026-cı ildə hazır olacağını bildirib. Eyni zamanda mart ayında Gallop Beynəlxalq Assosiasiyası tərəfindən Ermənistan ictimaiyyəti arasında keçirilmiş sorğuların nəticələri də onu deməyə əsas verir ki, ölkə əhalisinin böyük hissəsi konstitusiya dəyişikliyinin əleyhinədir və buna hazır deyil. Belə ki, sorğuda iştirak edən respondentlərin 59 faizi konstitusiyanın dəyişdirilməsinin əleyhinə, yalnız 7,5 faizi yeni konstitusiyanın qəbul edilməsindən yana olduğunu bildiriblər. Belə faktların olduğu bir şəraitdə Ermənistan tərəfinin öz cəmiyyətini sülhə hazırlamaq əvəzinə bu cür bəyanatlar verməsi onların sülhə hazırlıqdan daha çox başqa məqsədlərə xidmət etməsinə dəlalət edir. Bu səylər Ermənistanın reallıqdan uzaq sülh obrazı yaratmağa yönəlib. Üstəlik, fəaliyyət göstərməyən ATƏT-in Minsk qrupunun tam ləğv edilməsi məsələsi də rəsmi olaraq öz həllini tapmalıdır. Bu məsələdə də hələ ki Ermənistan tərəfindən əməli addımlar atılmır".

F.Abdullayev vurğulayıb ki, Ermənistan rəsmilərinin açıqlamalarının manipulyasiya olmasına dəlalət edən digər faktlar da var. Məsələn, İrəvan bir tərəfdən guya sülhü istədiyini nümayiş etdirir, digər tərəfdən isə diplomatik müstəvidə saman altından su yeridir və Azərbaycana qarşı həmlələrini davam etdirir. Bunun ən böyük nəticəsi kimi Belçika və İsveçrə parlamentində qəbul olunmuş sənədləri göstərmək mümkündür. Buna paralel olaraq Ermənistan silahlanır və bu da təbii olaraq ciddi narahatlıq doğurur. Çünki Ermənistan işğalçı dövlət olub və 30 il Azərbaycan ərazilərini işğal altında saxlayıb. Əslində proseslər onu deməyə əsas verir ki, onlar sülhə deyil, daha çox müharibəyə hazırlaşır. Ümumiyyətlə, Ermənistanın sürətlə silahlanması sülhə doğru atılacaq addımların ciddiliyini sual altına alır. Eyni zamanda Azərbaycanın mövqeyinin nə qədər haqlı və ciddi olduğunu bir daha ortaya qoyur.

Onun sölərinə görə, Azərbaycanın mövqeyi Ermənistanın müharibə hazırlıqlarını və beynəlxalq müstəvidəki təzyiq cəhdlərini nəzərə alaraq çox aydındır: "Nəticə etibarilə Ermənistanın özünü sülh mövqeyində olduğu kimi qələmə verməsi, əslində, müharibəyə hazırlığı pərdələmək siyasətinə daha uyğun gəlir, nəinki onun sülhsevər mövqeyinə. Fikrimcə, sülh prosesinin tam yekunlaşması üçün Ermənistan hakimiyyətnin Azərbaycanla münasibətlərdə, xüsusilə, sülh sazişinin imzalanması prosesində atacağı real addımlar və səmimi olması çox vacibdir. Bu addımlar arasında ən önəmlisi Ermənistanın Bakıdakı məhkəmə ilə əməkdaşlıq etməsi və Azərbaycana qarşı insanlıq əleyhinə cinayətlərə görə məsuliyyət daşıyan şəxsləri təhvil verməsidir. Eyni zamanda Ermənistanın Azərbaycan ərazisində törətdiyi cinayətlərdə məsuliyyəti qəbul etməsi və buna görə təzminat ödəməsi də sülhə doğru çox vacib şərtdir".

Siyasi təhlilçi dövlətimizin başçısının XII Qlobal Bakı Forumunda verdiyi bəyanatları xatırladaraq qeyd edib ki, bütün bunlar Ermənistanın Azərbaycanın şərtlərini tam şəkildə yerinə yetirənə qədər sülh sazişinin imzalanmasının hələlik real görünmədiyini deməyə əsas verir. Azərbaycanın beynəlxalq hüquq və ədalətə əsaslanan mövqeyi Ermənistanın sülhə doğru atacağı addımların nə qədər səmimi və ciddi olduğunu göstərmək üçün həlledici rol oynayacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Vardanyanın müdafiəsi üçün canfəşanlıq edənlərin fiaskosu

## BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupu həqiqətlərə əsaslanaraq qərar verib



**"Azərbaycan dövlətinə və xalqına qarşı cinayət törətməkdə təqsirləndirilən bir qrup erməniəsilli şəxslər ədalət mühakiməsi qarşısına çıxarılıb. Bir müddətdir ki, Bakıda onların məhkəməsi davam edir və məhkəmə prosesi şəffaf keçirilir. Nə qədər absurd olsa da, həm Ermənistan, həm də xaricdəki erməni lobbisi bu məsələ ilə bağlı dezinformasiya yayır, konkret cinayətlərdə ittiham olunan şəxslərin mühakimədən yayındırılması üçün fərqli yollara əl atırlar".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, həmin dairələrin məqsədi Azərbaycana beynəlxalq təzyiq göstərmək və bu yolla onların azad edilməsinə çalışmaqdır. Bir neçə gün öncə İsveç-Ermənistan parlament dostluq qrupu da erməni cinayətkarların Bakıda keçirilən məhkəməsi ilə bağlı absurd bəyanat qəbul etmişdi. Martın 13-də isə erməni lobbisinin yuvası olan Avropa Parlamenti tərəfindən bu mövzuda "qətnamə" qəbul olunmuşdu. Amma bütün bunlar əbəsdir, çünki bu gün güclü Azərbaycanla təzyiq dili ilə danışmaq mümkün deyil. "Saxta məlumatlara və yalan ittihamlara əsaslanan belə addımlarla reallığı təhrif etmək, Azərbaycanın suverenliyini şübhə altına almaq, erməni separatçılarının və müharibə canilərinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətləri təmizə çıxarmaq üçün göstərilən cəhdlər yolverilməzdir. Bir sıra xarici dairələr, xüsusilə, Ruben Vardanyanın müdafiəsində canfəşanlıq edirlər. Yəqin ki, bu da səbəbsiz deyil, çünki onlar bu yolla milyarder Vardanyanın maliyyəsindən pay qoparmağı özlərinə fürsət bilirlər. Lakin belələrinin beynəlxalq ictimaiyyətdə dəstək almaq cəhdləri fiaskoya uğrayır. Bunu BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupunun Ruben Vardanyan işi ilə bağlı Ermənistan tərəfinin iddialarını rədd etməsi də təsdiqləyir. Qurum bununla bağlı martın 13-də öz rəyini dərc edib", - deyə siyasətçi qeyd edib.

S.Fətəliyeva xatırladıb ki, işçi qrup öz rəyində Ermənistan tərəfinin Ruben Vardanyanın ifadə azadlığı və siyasi fəaliyyətinə görə həbs olunduğu barədə iddialarını açıq şəkildə rədd edib. Sözügedən rəydə xüsusilə vurğulanır ki, Ruben Vardanyan Azərbaycan Respublikası tərəfindən bir sıra şəxslərin ölümündə və genişmiqyaslı dağıntılar törədilməsində, terrorçuluğun maliyyələşdirilməsində, qeyri-qanuni silahlı birləşmələr yaradılmasında və digər cinayətlərdə ittiham olunur və məhz bu ittihamlar əsasında həbs olunub. Bununla yanaşı, onun öz haqlarını müdafiə etməsi və bu çərçivədə bəyanatlar verməsi səbəbindən həbs olunduğu barədə Ermənistan tərəfinin iddiaları əsassız sayılıb. İşçi qrupun rəyində qeyd olunub ki, ifadə və birləşmək azadlıqları mütləq hüquqlar deyil və onlar xüsusilə milli təhlükəsizlik və ictimai asayişlə bağlı səbəblərə görə məhdudiyyətlərə məruz qala bilər. Rəyə əsasən, R.Vardanyana qarşı ittihamların onun hərəkətlərinin milli təhlükəsizliyə təhdid törətdiyi qənaətinə gəlməyə imkan verir.

Deputat bildirib ki, bütövlükdə, beynəlxalq hüquqa uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycanın ağır cinayətlər, o cümlədən, separatizm cinayətləri, sülh və insanlıq əleyhinə, müharibə cinayətləri, Azərbaycan dövlətinə və onun vətəndaşlarına qarşı terror aktları törətmiş şəxsləri təqib etməyə tam qanuni hüququ var. Ən əsası budur ki, müharibə canilərinin cəzasız qaldığı dövr artıq başa çatıb.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Fransada zorakılıq rekord həddə çatıb

**Qadınlara Qarşı Zorakılıq üzrə Milli Monitorinq Mərkəzinin hesabatında bildirilir ki, Fransada ictimai nəqliyyatda cinsi zorakılıq qurbanlarının sayı ötən il rekord həddə çatıb. Məsələn, ölkənin İle-de-Frans bölgəsində hər 10 qadından yeddisinin ictimai nəqliyyatda hansısa formada cinsi zorakılığa məruz qaldığı müəyyən edilib.**

Mərkəzin yaydığı hesabatda 2016-cı ildən bəri qurbanların illik sayının 86 faiz artdığı göstərilib.

Araşdırmaya görə, 2024-cü ildə polis ictimai nəqliyyatda 3374 cinsi zorakılıq hadisəsi qeydə alıb. Bu da 2022-ci il göstəricilərindən 9 faiz çoxdur.

Hesabatda qeyd olunan zorakılıq formalarına cinsi qısnama, həmçinin zorlama və zorlama cəhdi daxildir.

Qurbanların 10 nəfərindən 9-u qadındır, onların 75 faizi 30 yaşdan aşağıdır.

Ölkədə ən çox zərər çəkmiş bölgə paytaxt Parisin İle-de-Frans bölgəsi olub - burada bütün hadisələrin 44 faizi qeydə alınıb və hər 10 qadından 7-si həyatlarının hansısa bir dönəmində ictimai nəqliyyatda cinsi zorakılığa məruz qaldığını bildirib.

Qustav Eyfel Universitetinin şəhərsalma üzrə tədqiqatçısı Manon Marqerit cinsiyyətçi təhqirlərə və arzuolunmaz toxunuşlara diqqət çəkib: "İlk olaraq ağla gələn cinayətkarlar eksgibisionistlər və "toxunanlardır". Həqiqətən də, ictimai nəqliyyatın müəyyən xüsusiyyətləri - sıx şərait, həddindən artıq sərnişin və nəqliyyat vasitəsini rahat tərk edə bilməmək - cinsi zorakılığın bu spesifik formalarına səbəb ola bilər. Bu hadisələr realdır, lakin onlar ictimai qavrayışda üstünlük təşkil edir, zorakılığın digər formalarını kölgədə qoyurlar. Lakin çox vaxt bu davranış formalar trivial hesab olunduğundan rədd edilsə də, əslində bunları yaşamış insanlara ciddi travma yetirə bilər."

Hesabatda bu tipli cinayətləri törədənlərin 96 faizinin kişi olduğu bildirilir. Həmçinin deyilir ki, bir çox qadın zorakılıq barədə məlumat verməkdən çəkinir, çünki onlar ciddi qəbul edilməyəcək və ya səlahiyyətlilər müvafiq tədbir görməyəcəklər.

Araşdırmaya görə, qurbanların yalnız 7 faizi polisə şikayət edir, 1/3-dən çoxu utanc, 70 faizi qəzəb hissi keçirir, 60 faizi isə cəmiyyəti dəyişmək istəyir.

Hesabatda qeyd edilir ki, ictimai nəqliyyatdan istifadə edən bir çox qadın bu cür hadisələrlə üzləşməmək üçün müxtəlif üsullardan istifadə edir - məsələn, marşrutunu, səyahət vaxtını və ya hətta geyimini dəyişir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*



# Demokratiyanın iki üzü - ədalətin ikili standartı




## Dayanıqlı sülh

### Ermənistan Azərbaycanın şərtlərinə yalnız reallıqda əməl etdiyi halda mümkündür

**"Mübarizəmiz ədalət, beynəlxalq hüquq və ləyaqətimiz üçün mübarizə idi. BMT-nin Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalan qətnamələrini icra etdik. Əgər torpağımızı güclə azad etməsəydik, onlar növbəti 27 il də kağız üzərində qalardı. Burada biz mühüm meyara gəlib çıxırıq ki, bəzən sülhə nail olmaq və ədaləti bərpa etmək üçün siz gücdən istifadə etməlisiniz".**

Martın 13-də "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumunun açılışındakı nitqində Prezident İlham Əliyevin söylədiyi kimi, Azərbaycanın zəfəri bölgədə dayanıqlı sülhə də birbaşa zəmin yaradıb.

Ölkəmiz torpaqlarının işğal altında olduğu dövrdə də hər zaman münaqişənin sülh yolu ilə tənzimlənməsinin tərəfdarı olub. Lakin nə Ermənistan, nə də ona havadarlıq edən xarici qüvvələr barış əldə olunmasını qətiyyən istəməyiblər. Bu münaqişənin danışıqlar yolu ilə həll olunması üçün missiyalandırılan ATƏT-in Minsk qrupu isə onilliklər boyu sülh istiqamətində hansısa addım atmadı. Əvəzində, ikilistandartlı qrup Ermənistanın dəyirmanına su tökməklə məşğul oldu və münaqişənin işğalçı və təcavüzkar ölkənin xeyrinə əbədiyyətədək dondurulması üçün əlindən gələn hər şeyi etdi. Digər yandan ermənipərəst xarici qüvvələr münaqişənin hərbi yolla həlli variantını da qəti şəkildə inkar edirdilər. Cənubi Qafqazda maraqları olan qüvvələr elə görüntü yaradırdılar ki, sanki Qarabağ münaqişəsi həlli mümkünsüz olan bir problemdir. Bütün bu imitasiyalardan ruhlanan Ermənistan tərəfi isə nəinki sülh barədə düşünür, əksinə işğal və təcavüz əməllərinin davamını gətirmək istəyirdi. Buna görə də Qərb himayədarlarının siyasi, diplomatik, hərbi dəstəyinə güvənməsi İrəvanı sülhdən yayınmağa, açıq şəkildə separatizmə dəstək durmağa, "Qarabağ Ermənistandır" kimi hədyan bəyanatlar səsləndirməyə yönəldirdi.

Ancaq "dəmir yuruq" düz üç onillik boyu idi ki, danışıqlar yolu ilə həll edilə bilinməyən, qəsdən "Qordi düyünü"nə çevrilmiş münaqişəni bir həmləsi ilə çözdü. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə hərb meydanında yerinə yetirildi.

Tarixə, beynəlxalq hüquqa, haqq-ədalətə dayanan bu qələbəsi ilə Azərbaycan həm də illərdir dünyada davam edən bu tip münaqişələrin həlli üçün mükəmməl nümunə yaratdı. Real şəkildə sübut etdi ki, bəzən danışıqlar yolu ilə həll edilə bilinməyən problemləri güc yolu ilə yerinə yetirmək olar.

Forumda dövlətimizin başçısı da çıxışında bu məqamı vurğuladı: "Biz bunu ən azı 20 ilə etdik, 2005-ci ildən etibarən etdik və ərazimizi azad edən, separatçılığa, separatçılara son qoyan güclü ordu yaratdıq. Bir sözlə, bu gün ərazi bütövlüyü və suverenliyin tam bərpası nəinki Azərbaycan xalqının güclü iradəsinin təzahürüdür, o cümlədən beynəlxalq ədaləti nümayiş etdirir".

İkinci Qarabağ müharibəsindən dərhal sonra Bakı İrəvana təkmil sülh modeli təklif edib. Məhz Azərbaycan tərəfinin sülhlə bağlı qərarlı mövqeyi bu istiqamətdə müəyyən irəliləyişlərin əldə olunmasına da şərait yaradıb.

İki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiyası işinə start verilməsi və digər sülh istiqamətində atılan addımlar da Azərbaycanın sülh səylərinin nəticəsidir.

Ancaq təəssüf ki, postmünaqişə dövründə də havadarlarının dəstəyinə güvənən Ermənistan dildə bir, əməldə ayrı fəaliyyət sərgiləyir. Özünü dünyaya "sülh göyərçini" kimi təqdim edən təcavüzkar ölkə bir yandan Azərbaycanla sülh müqaviləsini imzalamağa hazır olduğunu deyir, digər yandan Fransanın başçılıq etdiyi Qərb dəstəkçilərinin köməyi ilə sürətlə silahlanaraq revanşa hazırlaşır, hərbi eskalasiyanı artırır.

Sözügedən Forumda Prezident İlham Əliyev bildirdi ki, Ermənistana etimad səviyyəsi sıfra bərabərdir: "Beləliklə, biz onların hər hansı bir sözünə inanmırıq. Çünki onlar elə insan deyillər ki, biz inana bilək, o cümlədən onların indiki hökuməti. Bir daha bütün bunlar göstərir ki, onların dediyi bizim üçün sıfır məna kəsb edir. Bizə sənədlər, yazılı kağızlar lazımdır. Bizə lazımdır ki, onların konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları olmasın. Orada Azərbaycana qarşı ərazi iddiaları hələ də qalır. Bizə lazımdır ki, ATƏT-in Minsk qrupu buraxılsın".

Dövlətimizin başçısı dedi ki, biz bu mesajı Ermənistana çatdırırıq və deyirik ki, Minsk qrupunun saxlanılmasında məntiq yoxdur: "O, Qarabağ məsələsinin həlli üçün yaradılmışdı. İndi Qarabağ məsələsi həll olunub. Ermənistan Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır. ATƏT-in həmin qrupunun buraxılması üçün ümumi müraciətdə siz bizə niyə qoşulmursunuz? Onlar istəmirlər. Belə çıxır ki, onlar bir ayağını ərazimizdə yer saxlamaq üçün edir. Əlbəttə ki, virtual olaraq. Onların silahlanması - bu, nəyi göstərir? Bu göstərir ki, onlar yeni müharibəyə hazırlaşırlar. Kim onları yenidən müharibəyə sürükləyir? Fransa və onun prezidenti. Onların Ermənistanı təchiz etdiyi məhvedici silahlar bizə qarşı yönəlir".

Martın 13-də Ermənistanla Azərbaycan arasında sülh sazişi layihəsi ilə bağlı danışıqlar prosesinin yekunlaşması barədə hər iki ölkənin rəsmi qurumları məlumat verdilər.

Azərbaycan Xarici İşlər Nazirliyinin Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşmasına dair yaydığı bəyanatda deyilir: "Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığını məmnunluqla qeyd edirik. Bununla yanaşı, danışıq aparılmış mətnin imzalanması üçün əsas şərtin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaların aradan qaldırılması məqsədilə Ermənistanın konstitusiyasına dəyişiklik edilməsi barədə Azərbaycanın uzunmüddətli və prinsipial mövqeyini bir daha diqqətə çatdırırıq. Eyni zamanda ATƏT-in köhnəlmiş və qeyri-funksional Minsk qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğv olunmasının zəruriliyini vurğulayırıq. İki ölkə arasında normallaşma prosesi ilə bağlı bu və digər məsələlər üzrə ikitərəfli dialoqu davam etdirməyə hazırıq".

Diqqət edin, məsələ ilə bağlı Ermənistan Xarici İşlər Nazirliyinin yaydığı məlumatda isə vurğulanır ki, İrəvan Bakı ilə sülh müqaviləsinin imzalanma vaxtı və yerini müzakirə etməyə hazırdır. Heç şübhəsiz İrəvanın sülh müqaviləsinin imzalanması üçün bu qədər tələskənlik etməsinin öz məxsusi səbəbi var. Çünki Ermənistan sülh sazişini məhz Azərbaycanın bununla bağlı tələblərini yerinə yetirmədən bağlamaqda maraqlıdır.

Bakının sülh tələbləri isə dəyişməzdir: Ermənistan konstitusiyasını dəyişməlidir, Zəngəzur dəhlizi açılmalıdır, ATƏT-in Minsk qrupu de-yure fəaliyyətini dayandırmalıdır. Ermənistan sərhəd boyu öz ərazisində demilitarizasiya zonası yaratmalıdır. Həmçinin Ermənistan cəmiyyəti sülhə hazırlanmalıdır, çünki hazırda onların revanşizm əhvali-ruhiyyəsində olduğu da danılmaz həqiqətdir.

Bu şərtlər yerinə yetirilmədən iki ölkə arasında sülh müqaviləsinin imzalanacağı təbii ki, real deyil.

Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov məsələ ilə bağlı jurnalistlərin suallarına cavabında bildirib ki, Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanması üçün məkanın müzakirəsi hələ tezdir.

E.Məmmədov deyib ki, Azərbaycan tərəfi hazırda Ermənistanın konstitusiyasında müvafiq dəyişikliyin edilməsi ilə suveren ərazilərimizə 1990-cı illərdən mövcud olan iddiaların çıxarılması və Minsk qrupunun ləğvini gözləyir: "Hər iki dövlət sonuncu məsələ ilə bağlı ATƏT-ə müraciət edə bilər. Azərbaycan tərəfi münaqişənin həll edildiyini nəzərə alaraq, bu barədə bir müddətdir təklif irəli sürüb. Təəssüf ki, Ermənistan tərəfi bu günə kimi birgə müraciətə qoşulmur. Ümid edirik ki, Ermənistan real niyyəti barədə bizə məlumat verəcək. Ermənistandakı revanşist qüvvələrin fəaliyyətini nəzərə alaraq, bunu ciddi risk hesab edirik".

Bir sözlə, üzdə sülh tərəfdarı olduğunu göstərən Ermənistan əslində müharibəyə hazırlaşır. Konstitusiyasını dəyişmədən və digər şərtləri yerinə yetirmədən tez-tələsik sülh sazişini imzalamaq istəyində olan İrəvan bununla özünün gələcək təcavüz planlarını həyata keçirmək üçün vaxt qazanmağa çalışır.

Ancaq Ermənistanın bu riyakar davranışları Azərbaycanın Cənubi Qafqazda yaratdığı reallıqları dəyişdirmək iqtidarında deyil. Bu baxımdan İrəvanın yalnız bir yolu var: Azərbaycanın tələblərini yerinə yetirərək sülh müqaviləsini imzalamaq. Əks təqdirdə sülhdən söhbət açmaq yersizdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Ermənistan "sülh" oyunu oynayır

**Ermənistanın çoxillik münaqişə təcrübəsi göstərir ki, bu ölkə Azərbaycana qarşı hər hansı məkrli bir plan qurarkən ölkəmizin əleyhinə yönələn yalan, böhtan dolu məlumatların sayını daha da artırıb, təxribatlar törədib, müxtəlif bəhanələrlə atəşkəsi pozub...**



Haylar yenə də ənənələrinə sadiqdirlər. Azərbaycanla bağlanacaq sülh müqaviləsinin şərtlərini qəbul etdiklərini həvəslə tirajlayırlar. Əslində Ermənistan sülh sazişini imzalamağa heç də tələsmir, "sülh" oyunu oynayır. Ermənistan hakimiyyətinin taktikası belədir. Rəsmi İrəvan özünü dünyaya sülhün tərəfdarı, Azərbaycanı isə sülh əleyhinə olan dövlət kimi təqdim etməyə çalışır...

Sülh sazişini imzalamağa "hazır" olan Ermənistan Göyçə gölündən Araz çayına qədər olan, təxminən 400 kilometr məsafədə, şərti sərhəd bölgəsində yeni mühəndis-istehkam işləri həyata keçirib, müdafiə xətti formalaşdırıb. Qərbdən aldığı silah-sursatlar həmin ərazilərə gətirilib. Orada yeni hərbi birləşmələrin, silah və texnikaların yerləşdirilməsi təmin edilib. Əgər Ermənistan sülh istəyində səmimidirsə bu prosesi dayandırmalı və səmimi şəkildə münaqişənin həlli, ümumiyyətlə, Cənubi Qafqazda sabitliyin bərqərar olunması üçün konkret addımlar atmalıdır. Təəssüf ki, Ermənistan kənar qüvvələri bölgəyə cəlb etməklə münasibətləri başqa istiqamətə çəkməyə çalışır. Aİ-nin "mülki müşahidə missiyası" adı ilə Ermənstana yerləşdirdiyi qüvvələr sülh proseslərinə mane olur.

Sülh sazişini imzlamağa hazır olan Ermənistan bu günlər ölkəmiz əleyhinə yönələn təbliğat maşınını tam qüvvəsi ilə işə salıb, daha fəal proqramda fəaliyyət göstərir.

Erməni lobbisi Avropa İttifaqı Parlamentindən Bakıda saxlanılan ermənilərin dərhal və qeyd-şərtsiz azad edilməsini tələb edən qətnamə də alıb. Qətnamədə saxlanılan ermənilərin guya qeyri-insani rəftara məruz qalmaları, hətta psixotrop maddələrin tətbiqi kimi absurd iddialar irəli sürülüb. Ermənistanın 30 il ərzində Azərbaycan ərazilərini işğal edərək hərbi cinayətlər və etnik təmizləmə aparması Avropa üçün önəm daşımadığı halda, Aİ-nin bir daha beynəlxalq hüquq normalarını ayaqlar altına ataraq separatçılara və Azərbaycana qarşı təxribatlarda iştirak edən şəxslərə himayədarlığını nümayiş etdirməsi, qanuni məhkəmə proseslərinə qarşı çıxması, bu ittifaqın ikili standartlarla fəaliyyət göstərdiyini, Ermənistanınsa bu təşkilatın fəal istifadə etdiyi "peşka" olduğunu açıq şəkildə sübut edir.

Qeyd edək ki, ABŞ-də Donald Trampın hakimiyyətə gəlişi dünyanın siyasi və hərbi arxitekturasında ciddi dəyişikliklərə aparır. Artıq Ermənistanda da dərk edirlər ki, Tramp administrasiyası üçün bu ölkə əhəmiyyətli tərəfdaş deyil. Eyni zamanda baş verən qlobal hadisələr fonunda Ermənistanın daha çox güvəndiyi Avropa Birliyi və Fransanın hazırda bu ölkəyə təhlükəsizlik təminatı vermək imkanı yox dərəcəsindədir. Siyasi səhnədə baş verən ciddi dəyişikliklər, sürətlə ABŞ-Rusiya yaxınlaşması bu gün Qərbi daha çox öz taleyini düşünməyə məcbur edir. Eyni zamanda Ermənistan ordusunun Azərbaycan Ordusuna nisbətdə bütün göstəricilər üzrə dəfələrlə geridə olması indiki məqamda sülh bəyanatları verməklə status-kvonu saxlamağa məcbur edir.

Ermənistanı sülh sazişini imzalamağa "razı" salan səbəblərdən bəhs edərkən mütləq ölkə daxilində baş verən hadisələri də nəzərə almaq lazımdır. Yaranmış vəziyyətdən maksimum istifadə etməyə çalışan revanşistlər, o cümlədən onların orduda təmsil olunan qüvvələri vəziyyəti dəyişmək, sabitliyi pozmaq üçün əllərinə fürsət düşdüyünü zənn edirlər. Bu günlərdə müharibədə itkin düşən hərbçilərin valideynlərinin övladlarını xatırlamaları, İrəvanda qarışıqlıq salmaq istəmələrini də təsadüfi hesab etmək olmaz. Paşinyan hakimiyyətinin məğlubiyyəti üçün hər cür imkandan istifadə etməyə çalışan qüvvələrin iki ölkə arasında sülh müqaviləsinin imzalanmasına maneçilik törətməyə çalışdıqları da göz qabağındadır.

Şübhəsiz ki, sülh sazişinin imzalanması Paşinyan hakimiyyətinə siyasi-iqtisadi dividendlər gətirə bilər. Ümumilikdə Ermənistanla bağlanacaq sülh müqaviləsi bu ölkənin gələcək taleyində çox mühüm rola malikdir. Bunu ölkənin taleyinə cavabdeh olan Ermənistan rəsmiləri də, müxalifəti də dərk etməkdədirlər. Elə bu səbəbdən də Paşinyan hakimiyyəti nizamlanma prosesini sürətləndirməyə maraq göstərsə də, Ermənistan müxalifəti hər vəchlə buna mane olmağa çalışır. Avropanın öz canının hayına qaldığı indiki məqamda Qərbin adamı olan Nikol Paşinyanın vəziyyəti heç də ürəkaçan deyil.

Xatırladaq ki, baş nazir Nikol Paşinyan hökumət üzvləri və hakim Mülki Müqavilə Partiyasının nümayəndələri ilə keçirdiyi görüşdə "Bakı dəhliz tələbindən geri çəkilmir, razılaşmasaq, müharibə qaçılmaz olacaq. O, ictimaiyyəti bu barədə məlumatlandırmağın zəruri olduğunu bildirib". Qəribədir ki, Paşinyanın müharibə anonsu verdiyi vaxtla Ermənistan sülh sazişini imzalamağa hazır olduğu vaxt üst-üstə düşür. Sual yaranır: tezliklə sülh sazişi imzalanarsa, Zəngəzur dəhlizinə kim nəzarət edəcək? Əslində 2020-ci ilin noyabrında imzalanan üçtərəfli Bəyanata görə, dəhlizə nəzarəti Rusiyanın sərhəd qoşunları həyata keçirməlidir. Bu, faktiki olaraq Ermənistanın İranla yeganə sərhədinin Rusiyanın nəzarətinə keçməsi deməkdir. İran və Ermənistan bunu istəməsə də, Moskva dəhlizə nəzarəti əldən vermək niyyətində deyil.

Belə qənaətə gəlmək olar ki, Ermənistanın sülh sazişini imzalamaq barədə verdiyi açıqlamalarında başqa niyyəti var: əsas məqsədi vaxt qazanmaqdır. İndiki qarışıq məqamda N.Paşinyan hansı səmtə üz tutacağını deyəsən hələ ki, dəqiq müəyyənləşdirə bilməyib.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Yanlış yolla addımlayan Ermənistanı qarşıda uçurumlar gözləyir

### Avropa ölkələrindən aldığı silahlar isə onun özünə qarşı çevrilə bilər

**Azərbaycan dövləti həmişə sülhün tərəfində olub, regionda sabitliyi və əmin-amanlığı dəstəkləyib. 30 ilə yaxın torpaqlarının sülh yolu ilə qaytarılmasını gözləyib, silaha əl atılmasını, müharibənin başlanmasını istəməyib. Amma uzun illər torpaqlarımızı işğalda saxlamış Ermənistan həmişə müharibə tərəfdarı olub. Bu məqsədlə həmişə təxribatlar törədib, müxtəlif bəhanələr uydurub. Ermənistan İkinci Qarabağ müharibəsindən məğlub çıxdıqdan, işğal etdiyi Azərbaycan torpaqlarından biabırcasına qovulduqdan sonra da, təəssüf ki, revanşizmdən əl çəkmir, sülh sazişi imzalamaq istəmir. Sülh pərdəsi altında yeni müharibəyə hazırlaşır.**




Azərbaycan isə qalib dövlət olaraq, regionda uzunmüddətli sülhün təmin olunması naminə dünyanın gözü qarşısında sabitliyə doğru inamlı addımlar atır. Qısa müddət ərzində düşmən ölkə olan Ermənistanla sülh müqaviləsinin imzalanmasına nail olmağa çalışır. Bu məqsədlə üzərinə düşən bütün beynəlxalq vəzifə və öhdəlikləri uğurla yerinə yetirir. Lakin rəsmi İrəvan əksinə, müxtəlif vasitələrə əl atmaqla, bəhanələr uydurmaqla sülh prosesini yubadır, bir növ, yeni müharibəyə hazırlaşmaq üçün vaxt qazanır. Avropa İttifaqının heç nəyə yaramayan mülki missiyasının ölkəsində fəaliyyət göstərməsinə razılıq verməklə sülh danışıqları prosesinə qəsdən əngəllər yaradır. Bütün bunlar bir daha onu göstərir ki, Ermənistan sülh tərəfdarı deyil, ölkəsində və regionda əmin-amanlıq istəmir. Sülh, əmin amanlıq istəyən ölkə silahlanma siyasəti yürütməz, başda Fransa olmaqla Avropa ölkələrindən, Hindistandan ətək-ətək pul verib döyüş texnikaları almaz. Əgər rəsmi İrəvan sürətlə silahlanırsa, deməli onun məqsədi sülh deyil, müharibədir. Əsl həqiqət budur ki, Ermənistan müharibə niyyətini gizlətmək üçün sülhdən danışaraq beynəlxalq ictimaiyyəti aldadır. Özü də hiss eləmədən yalançılığının girovuna çevrilir.

Bu ölkədə gedən son proseslər bir daha onu göstərir ki, Ermənistan öz xarici siyasətini yalan və uydurmalar üzərində qurur. Bunun üçün aldadıcı, gözdən pərdə asmaq məqsədi daşıyan manevrlər edir. Etdiyi bu yarımçıq və gülüş doğuran manevrlərlə özünü beynəlxalq arenada sülhə sadiq olduğunu göstərməyə çalışır. Amma rəsmi İrəvan reallıqdan uzaq olan bu yalançı görüntülərlə elə də uzağa gedə bilmir. Çox keçmir ki, sülh danışıqları aparan Ermənistanın hansısa Avropa ölkəsindən milyonlarla dollar məbləğində silah aldığı üzə çıxır. Belə real faktlar isə bir daha rəsmi İrəvanın sülhə sadiq olmadığını göstərir.

Təbiidir ki, ölkəmizin sülh prosesindəki təşəbbüskarlığı regionda sabitlik və iqtisadi inkişafa, qarşılıqlı əməkdaşlığa xidmət edir. Bu addımlar böyük tarixi əhəmiyyət daşıyır, gələcəkdə qarşılıqlı əməkdaşlıq üçün geniş imkan və yollar açılır. Bütün bunlar bir daha göstərir ki, Azərbaycanın Ermənistandan sülhlə bağlı tələbləri və şərtləri regionda sabitlik, uzunmüddətli barışığa hədəflənib. Ona görə də Azərbaycanın bütün şərt və tələbləri rəsmi İrəvan tərəfindən mütləq qəbul edilməldir. Çünki iki ölkə arasında sülh sazişinin imzalanması Cənubi Qafqazda sabitliyi təmin edəcək. Sülhə, əmin-amanlığa və sabitliyə nail olmaq üçün Ermənistan ilk növbədə gizlin həyata keçirmək istədiyi müharibə planlarından əl çəkməli, siyasi iradə ortaya qoyub sülh sazişini imzamalıdır. Avropa İttifaqı, eləcə də başqa beynəlxalq təşkilatlar isə rəsmi İrəvanı silahlanmaya, müharibələrə yox, sülhü dəstəkləməyə, sülh sazişini imzalamağa məcbur etməlidirlər. Təəssüflər olsun ki, beynəlxalq təşkilatlar bunu etmək əvəzinə, gizli yollarla, müxtəlif adlar və formalarla Ermənistanı silahlandırır, külli miqdarda maliyyə dəstəyi göstərirlər. Rəsmi İrəvan da onlara arxalanaraq Cənubi Qafqaza əmin-amanlıq, sabitlik gətirəcək sülh sazişinin imzalanmasını yubadır. Ermənistan bu cür revanşist addımlar atmaqla dünyada etimadını getdikcə itirir.

Azərbaycan Prezidenti İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumunun açılış mərasimində çıxışı zamanı sülh sazişi ilə bağlı fikirlərini bölüşərək deyib: "Ermənistana etimad səviyyəsi sıfra bərabərdir. Beləliklə, biz onların hər hansı bir sözünə inanmırıq. Çünki onlar elə insan deyillər ki, biz inana bilək, o cümlədən onların indiki hökuməti. Bir daha bütün bunlar göstərir ki, onların dediyi bizim üçün sıfır məna kəsb edir. Bizə sənədlər, yazılı kağızlar lazımdır. Bizə lazımdır ki, onların Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları olmasın. Orada Azərbaycana qarşı ərazi iddiaları hələ də qalır. Bizə lazımdır ki, ATƏT-in Minsk qrupu buraxılsın. Biz bu mesajı Ermənistana çatdırırıq və deyirik ki, Minsk qrupunun saxlanılmasında məntiq yoxdur. O, Qarabağ məsələsinin həlli üçün yaradılmışdı. İndi Qarabağ məsələsi həll olunub. Ermənistan Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır. ATƏT-in həmin qrupunun buraxılması üçün ümumi müraciətdə siz bizə niyə qoşulmursunuz? Onlar istəmirlər. Belə çıxır ki, onlar bir ayağını ərazimizdə yer saxlamaq üçün edir. Əlbəttə ki, virtual olaraq..."

Daim regionda sabitliyi dəstəkləyən Azərbaycan yenə də tarixi ənənələrinə sadiq qalaraq Ermənistanla uzun illər davam etmiş münaqişənin başa çatmasından sonra iki ölkə arasında sülhün təmin edilməsi məqsədilə dəyərli ideyalar irəli sürür, səmərəli təşəbbüslər həyata keçirir. Ermənistan isə üzdə özünü bu təşəbbüslərə qoşulan kimi göstərir, gizlində isə silahlanır, müharibəyə hazırlaşır. Dövlətimizin başçısı "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumunun açılışındakı çıxışı zamanı Ermənistanın sülh sazişini imzalamaq əvəzinə, müharibəyə hazırlaşdığını forum iştirakçılarının diqqətinə çatdıraraq demişdir: "Bu göstərir ki, onlar yeni müharibəyə hazırlaşırlar. Kim onları yenidən müharibəyə sürükləyir? Fransa və onun prezidenti. Onların Ermənistanı təchiz etdiyi məhvedici silahlar bizə qarşı yönəlir. Bu gün başqa yerdə lazım ola biləcək "Sezar" haubitsaları Ermənistana göndərilir. Əslində, Avropa İttifaqının kəşfiyyat missiyası olan dırnaqarası Avropa monitorinq missiyası gecə-gündüz casus kimi sərhədlərimizdə dayanır və baxırlar ki, bəlkə haradan, bir yerdən girə bilsinlər. Bizim də həmin dırnaqarası monitorinq missiyası barədə kifayət qədər kəşfiyyat məlumatımız var. Avropanın Sülh Fondu milyonlarla dolları Ermənistanı silahlandırmaq üçün ona verir. Bəli, onlar deyir ki, bu pul qeyri-məhvedici hərbi qurğular üçündür. Birincisi, bunu kim yoxlaya bilər? İkincisi, siz onlara 10 milyon verirsiniz və sonra isə digər 10 milyon planlaşdırılır. Beləliklə, Ermənistana silah almaq üçün pula qənaət imkanı yaranır. Nəinki Fransa onlara məhvedici silahlar göndərir. Onda onlar bunu niyə edir? Onlar nəyə hazırlaşır? Əgər sülh istəyirlərsə, buna ehtiyac yoxdur."

Üzdə özünü sülh göyərçini kimi göstərməsi, diplomatik müstəvidə Azərbaycana qarşı həmlələrini davam etdirməsi, dayanmadan silahlanması bir daha onu göstərir ki, Ermənistan regionda sabitlik, əmin-amanlıq istəmir. Rəsmi İrəvananın sülh sazişi haqqında müəyyən razılaşmaları, yalnız və yalnız müharibəyə hazırlığı pərdələmək üçün düşünülmüş addımdır. Yanlış addımlar isə həmişə həm ölkələri, həm də insanları səhv istiqamətə aparır. Sülhlə bağlı Azərbaycanın tələblərini nəzərə almayan Ermənistanı addımladığı bu yanlış yollar uçurumlara aparacaq. Ətək-ətək pul verib Avropa ölkələrindən aldığı silahlar isə onun özünə qarşı çevriləcək. Əgər Ermənistan silaha əl atsa, müharibəyə başlasa 44 günlük Vətən müharibəsində olduğu kimi qarşısında güclü, qüdrətli Azərbaycan Ordusunu və dövlətini görəcək. Yenə də məğlubiyyət rəsmi İrəvan üçün qaçılmaz olacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# REGİONLAR

## Qərbi Azərbaycana qayıdış mövzusu Gəncədə də gündəmdən düşmür

**Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) və Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış" mövzusunda "dəyirmi masa" keçirilmişdir.**

Tədbirdə ADAU-nun rektoru Zəfər Qurbanov, Milli Məclisin deputatları Məlahət İbrahimqızı, Mahirə Hüseynova və Pərvin Kərimzadə, ADAU-nun prorektoru, professor Mahirə Hüseynova, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, eləcə də universitetin professor-müəllim heyəti və fəal gənclər iştirak etmişlər.

"Dəyirmi masa"nı giriş sözü ilə universitetin rektoru Zəfər Qurbanov açaraq Qərbi Azərbaycana qayıdışın milli kimliyimizin, tarixi yaddaşımızın qorunması və ədalətin bərpası baxımından strateji əhəmiyyət daşıdığını diqqətə çatdırmış və qeyd etmişdir ki, dövlətimiz bu məsələyə xüsusi önəm verir.

Milli Məclisin deputatı Məlahət İbrahimqızı da çıxışında Qərbi Azərbaycana qayıdışın təkcə siyasi deyil, eyni zamanda tarixi ədalətin bərpası baxımından əhəmiyyətini diqqətə çatdırmışdır. Tədbirdə çıxış edən Mahirə Hüseynova isə Qərbi Azərbaycanın tarixi-mədəni irsinin qorunması və gələcək nəsillərə ötürülməsinin bizim əsas vəzifələrimizdən biri olduğunu qeyd etmişdir. YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov da tədbirin əhəmiyyətindən danışmış, Qərbi Azərbaycana qayıdışın xalqımız üçün milli hədəf olduğunu bildirmişdir. Milli Məclisin deputatı Pərvin Kərimzadə isə görüşlə bağlı fikirlərini bölüşərək Qərbi Azərbaycana qayıdış ideyasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğulamışdır.

"Dəyirmi masa"da iştirak edən ADAU-nun kafedra müdirləri Aynur Həsənova və Zahir Ələsgərov, AMEA Gəncə bölməsinin rəhbəri Əlimuxtar Muxtarov çıxış edərək mövzu ilə bağlı fikirlərini bildirmişlər.

Sonda Mahirə Hüseynova özünün "Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik-etimoloji təhlili" və "XX əsrdə Dərələyəzdə Urbisid və Etnosid aktları" adlı kitablarını tədbir iştirakçılarına təqdim etmişdir.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

## Dövlətin daha bir sosial layihəsi - "Himayədar ailə" qayğı modeli

**Masallıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə "Himayədar ailə" qayğı modeli barədə məlumatlandırma mövzusuna həsr olunan ictimai dinləmə təşkil olunub.**



Gənclər Evində keçirilən tədbirdə rayon icra hakimiyyətinin, Sosial Xidmətlər Agentliyinin və digər qurumların, həmçinin qeyri-hökumət təşkilatlarının nümayəndələri, təhsil işçiləri, tələbələr, mövzu ilə bağlı müraciət edən vətəndaşlar iştirak ediblər.

Agentliyin Valideyn himayəsindən məhrum olmuş uşaqlarla iş departamentinin müdir müavini Əhməd Mansurov "Himayədar ailə" qayğı modeli, bu modelin üstünlükləri, müraciət formaları barədə məlumatlar verib. İştirakçıların diqqətinə çatdırılıb ki, ölkəmiz üçün yeni olan bu model çərçivəsində 37 uşaq artıq himayədar ailələrə yerləşdirilib.

Rayon icra hakimiyyəti başçısı yanında Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi Zamin Məmmədov çıxış edərək bu modelin uşaqların qayğı ilə əhatə olunmaları və sağlam gələcəyi baxımından mühüm əhəmiyyətini vurğulayıb. Çıxışlarda "Himayədar ailə" institutunun hüquqi əsasları, himayədar valideyn olmaq istəyən şəxslərin qiymətləndirmə prosesi barədə təqdimatlar edilib, müzakirələr aparılıb və suallar cavablandırılıb.

Qeyd edək ki, bu mövzu çərçivəsində ictimai dinləmələr mütəmadi olaraq müxtəlif ərazilərdə təşkil edilir.

***S.CAVADOV,***
***"Azərbaycan"***

## Laçın rayonunda fəaliyyət göstərən işəgötürənlərlə görüş olub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Şərqi Zəngəzur Regional Məşğulluq filialında Laçın rayonunda fəaliyyət göstərən və fəaliyyəti nəzərdə tutulan işəgötürənlərlə görüş keçirilib.**

"Əhalinin dayanıqlı məşğulluğunun təmin olunması istiqamətində işəgötürənlərlə əməkdaşlığın qurulması və inkişaf etdirilməsi" mövzusunda keçirilən görüşdə işğaldan azad olunan ərazilərimizdə reallaşdırılan aktiv məşğulluq proqramları barədə məlumat verilib.

Böyük qayıdış proqramı çərçivəsində həmin ərazilərə köçürülən sakinlərin məşğulluğunun təminatı məqsədilə agentlik tərəfindən görülən işlərdən bəhs olunub. Qurumun fəaliyyət istiqamətləri barədə təqdimat da edilib.

İşğaldan azad olunan ərazilərimizdə aktiv məşğulluq proqramlarının icrası sahəsində işəgötürənlərlə birgə görüləcək işlər müzakirə olunub.



## Yerlərdə "Konstitusiya və Suverenlik İli" çərçivəsində ağacəkmə aksiyaları keçirilir

### LƏNKƏRAN

**"Konstitusiya və Suverenlik İli" ilə bağlı təsdiq olunmuş tədbirlər planı çərçivəsində Ələt-Astara avtomobil yolunun Lənkərandan keçən hissəsində ağacəkmə aksiyası keçirilib.**

Yerli idarə, müəssisə və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən aksiyada yeni əkilən ağaclar suvarılıb və dayaqlarla bərkidilib.

Liman, Boladi, Girdəni, Haftoni, Qrumba, Şağlakücə, Kərgəlan, Şürük, Səpnəkəran və Sütəmurdov ərazilərində keçirilən aksiya zamanı 2000 sərv ağacı əkilib.

### YARDIMLI

**Ağacəkmə aksiyasında RİH başçısı aparatının, idarə, müəssisə və xidmət sahələrinin əməkdaşları, gənclər və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.**



Aksiya iştirakçıları tərəfindən ağac əkiləcək ərazi əvvəlcədən təmizlik işləri aparılaraq əkin üçün hazır vəziyyətə gətirilmişdir. Aksiyada 50 Eldar şamı və 50 göyrüş ağacı əkilmişdir.

Aksiyanın keçirilməsində məqsəd ağac əkməklə ekoloji tarazlığın bərpasına, ətraf mühitin qorunmasına kömək etmək, atmosferi oksigenlə zənginləşdirmək, ictimaiyyətin diqqətini yaşıllıqların qorunmasına yönəltməkdir.

### MASALLI

**Rayonun Xırmandalı ərazisində Masallı RİH-in təşkilatçılığı ilə keçirilən aksiyada icra hakimiyyəti başçısının Xırmandalı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi, kənd bələdiyyəsi, şəhid ailələri, ziyalılar, din xadimləri və sakinlər iştirak etmişlər.**

Aksiya çərçivəsində mərkəzi yolun kənarlarında 50-dən çox meşə ağacı əkilmiş, ağaclara aqrotexniki qulluq göstərilmişdir.

Ağacəkmə aksiyasında çıxış edən Masallı RİH-in məsul əməkdaşı N.Həsənov digər ərazilər kimi Xırmandalı ərazisində də "Konstitusiya və Suverenlik İli" çərçivəsində aksiyanın keçirilməsinin ekoloji tarazlığın qorunmasına mühüm təsir edəcəyini bildirərək bu cür kampaniyaların rayon ərazisində ənənə halını aldığını vurğulamışdır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Kəndlinin yeni ili bahardan başlayır



### Tovuzlu fermerlər bu fəsildə həmçinin köhnə ilin yekunlarını götür-qoy edirlər

**Bölgələrdə əhalinin əsas gəlir mənbəyi olan aqrar sahənin inkişafı üçün ardıcıl və əməli tədbirlər görülür. Bu baxımdan iri kənd təsərrüfatı rayonu olan Tovuz da istisna deyil. Tovuz fermerlərinin bu gün qarşısında duran əsas vəzifə ənənəvi sahələr olan taxılçılıq, kartofçuluq, üzümçülük və heyvandarlığın inkişafını sürətləndirməkdir.**

Ümumiyyətlə, rayonda aqrar sektorun strateji sahələrindən olan taxılçılığa xüsusi diqqət verilir. Bu məqsədlə hər il əkin sahələrini artırmaq, daha çox taxıl istehsalına nail olmaq üçün bütün qüvvələr səfərbərliyə alınır. Keçən il də əvvəlki ildən çox, yəni 14137 hektar sahədə taxıl əkilmişdir. Əkilmiş sahənin 11902 hektarı payızlıq buğda, 2235 hektarı payızlıq arpa olmuş, hər hektardan 33,3 sentner olmaqla 41199 ton məhsul götürülmüşdür.

Kənd təsərrüfatının digər sahələrində də yüksək göstəricilərə nail olunmuşdur. Götürək kartofçuluğu. Ölkəmizdə Gədəbəydən sonra ikinci ən çox kartof istehsalçısı olan Tovuzda ötən mövsüm 5496 hektar sahənin hər hektarından 298,6 sentner olmaqla 164083 ton məhsul yığılmışdır. Bundan başqa, ötən il rayon üzrə 24,4 min ton tərəvəz, 780,2 ton bostan, 87 min ton çuğundur, 4,4 ton tütün, 11,7 min ton yazlıq qarğıdalı, 30,4 min ton üzüm, 24,5 min ton meyvə və giləmeyvə toplanmışdır.

Məlum olduğu kimi, ölkə başçısının 27 noyabr 2017-ci il tarixli sərəncamı ilə 2018-2025-ci illərdə Azərbaycan Respublikasında baramaçılığın inkişafına dair Dövlət Proqramı qəbul edilmişdir. Rayon kümçüləri bu sənəddən irəli gələn vəzifələrin icrası üçün bir sıra tədbirlər həyata keçirmişlər. Nəticədə təkcə ötən mövsüm 54 kümçü tərəfindən 3867,60 kiloqram yaş barama istehsal olunaraq "Azəripək" MMC-yə təhvil verilmişdir.

Bir neçə fakt da bu gün daha çox haqqında söhbət gedən heyvandarlıq barədə. Öncə onu qeyd edək ki, Tovuz heyvandarlığın inkişafı sahəsində həmişə yüksək göstəricilərə nail olmuşdur. Bu ənənə az-çox indi də davam edir. Keçən ilin əvvəlinə olan məlumata görə, rayon üzrə qaramalın baş sayı 41 min, qoyun və keçilərinki 164 min olmuşdur.

Rayonda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində də çoxsaylı tədbirlər görülür. Keçən il 4 süni mayalanma mütəxəssisi tərəfindən 598 baş inəkdə mayalanma aparılmış, 348 baş sağlam buzov alınmışdır.

Tovuzlu heyvandarlar çalışırlar ki, bu sahənin alimləri ilə əməkdaşlıqlarını genişləndirsinlər. Elə bu məqsədlə keçən il Tovuz Dövlət Aqrar İnkişaf Mərkəzinin heyvandarlıq sektorunun əməkdaşları və rayonda fəaliyyət göstərən fermerlər Heyvandarlıq Elmi Tədqiqat İnstitutunda keçirilən seminarlara qatılmış və öyrəndikləri yenilikləri təsərrüfatlarında tətbiq etmişlər. Səmərəsi gözlənildiyindən də yaxşı olmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Taxıl biçininə hazırlıqla bağlı ödənişsiz təlimlərə start verilib

**"Aqroservis" ASC mart ayından cari ildə taxıl biçininə hazırlıqla bağlı biçini həyata keçirən mexanizatorlara təlimlərə başlayıb.**

Təlimlər ASC-nin Yevlax təlim-tədris mərkəzində və Masallı Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında həyata keçirilir. Martın 10-dan başlayan təlimlər müxtəlif markalar üzrə keçirilməklə may ayına kimi davam edəcək. Təlimlərə ümumilikdə 163 mexanizator cəlb ediləcək.

Təlimlərin keçirilməsində əsas məqsəd cari ildə taxıl biçininin itkisiz və mütəşəkkil həyata keçirilməsi, texnikaların mexanizatorlar tərəfindən düzgün idarə edilməsinə nail olmaq, onların kombaynlara düzgün texniki xidmətin göstərilməsi, istismar zamanı baş verə biləcək nasazlığın aradan qaldırılması və təhlükəsizlik qaydalarına düzgün riayət edilməsi ilə bağlı bilik və bacarıqlarını artırmaqdır.

Təlimlər istehsalçı zavoddan dəvət olunmuş yüksəkixtisaslı mütəxəssislər və "Aqroservis" ASC-nin müəllim heyəti tərəfindən videogörüntü və əyani vasitələrdən istifadə edilməklə interaktiv formada təşkil olunur. Mexnizatorlara kombaynın idarə edilməsi, təmir işlərinin aparılma qaydaları əyani nümayiş etdirilir. Təlimdən sonra imtahandan keçən hər bir mexanizatora (operatora) sertifikat təqdim edilir.

## Saatlıda pambığın becərilməsində yeni texnologiyaların tətbiqindən danışılıb

**Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun (BMTBETİ) təşkilatçılığı ilə Saatlı rayonunda "Pambıq bitkisinin becərilməsində yeni texnologiyaların tətbiqi" mövzusunda seminar keçirilib.**





Saatlı Dövlət Aqrar İnkişaf Mərkəzində (DAİM) təşkil edilmiş seminarda BMTBETİ-nin alim və mütəxəssisləri ilə yanaşı, pambıq tədarükü və emalı ilə məşğul olan şirkətlərin nümayəndələri, Saatlı, Sabirabad, İmişli, Biləsuvar, Salyan rayolarından olan fermerlər iştirak ediblər.

Saatlı DAİM-in direktoru Ağa Əsədov rayon ərazisində pambıqçılıqda olan mövcud vəziyyət barədə seminar iştirakçılarını məlumatlandırıb. Fermerlərin üzləşdiyi problemlər və onların aradan qaldırılmasında fermerlərin maarifləndirilməsinin vacibliyini vurğulayıb.

BMTBETİ-nin direktoru, professor İbrahim Cəfərov Azərbaycanda pambıqçılığın böyük potensiala malik olduğunu, bu sahənin əməktutumluluq və gəlirlilik baxımından kənd təsərrüfatının aparıcı sahələrindən biri olduğunu bildirib. Pambıqçılığın inkişafına dövlət tərəfindən xüsusi diqqət yetirildiyini qeyd edən professor vurğulayıb ki, fermerlər hər il pambıq becərməyə daha çox maraq göstərirlər. Məhz buna görə də pambıqçılıqda məhsuldarlığın yüksəldilməsi mühüm vəzifə kimi qarşıya qoyulub. Qarşıda duran əsas vəzifələrdən biri də pambıq toxumçuluğu məsələləri üzərində çalışmaq və yerli sortlardan istifadəni genişləndirməkdir.

BMTBETİ-nin mütəxəssisləri Ələddin Tağıyev "Respublikada müxtəlif torpaq iqlim şəraitində yerli və introduksiya olunmuş pambıq sortlarının müqayisəli qiymətləndirilməsi", İsmayıl Nəbiyev "Pambıq bitkisinin becərmə texnologiyası", Xurşid Aslanova "Pambıq bitkisinin xəstəlik və zərərvericiləri, onlara qarşı mübarizə üsullarının öyrənilməsi", Səbuhi Eldarov "Pambıqçılıqda şoranlıq və quraqlıq stresləri, mübarizə tədbirləri" mövzusunda təqdimatlarla çıxış ediblər. Təqdimatlarda Azərbaycanda becərilən pambıq sortları, səpinqabağı becərmə işləri, çiyidin səpinə hazırlanması, səpinin aparılma qaydaları, pambığın becərmə texnologiyaları, seyrəltmə, ketmənləmə, kultivasiya, xəstəlik və zərərvericilər barədə məlumatlar yer alıb. Mütəxəssislər bildiriblər ki, fermerlər pambıq əkini zamanı toxum seçiminə diqqət etməli, əkin zamanı növbəlilik prinsipinə mütləq əməl olunmalıdır.

Sonda mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb, "Prime Cotton" MMC və "Azərpambıq" MMC-nin nümayəndələri iştirakçılara öz təklif və tövsiyələrini veriblər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Umudlu kəndinə gedən yolun yenidən qurulması yekunlaşmaq üzrədir

**Azərbaycanın yol infrastrukturunun təkmilləşdirilməsi ölkənin iqtisadiyyatına və sosial həyatına müsbət təsir göstərir. Yol layihələri əhalinin həyat şəraitinin yaxşılaşdırılması, iqtisadi əlaqələrin gücləndirilməsi və təhlükəsiz nəqliyyat şəbəkəsinin təmin edilməsi baxımından önəm daşıyır.**



Ağdərə rayonu, Sərsəng su anbarı-Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulması da belə mühüm layihələrdən biridir.

Prezidentin sərəncamına əsasən, Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulması istiqamətində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən həyata keçirilən tikinti işləri artıq yekunlaşmaq üzrədir.

Yolun ümumi uzunluğu 9,4 kilometrdir və IV texniki dərəcəyə malikdir. Hərəkət hissəsinin eni 6 metr olan yol 2 hərəkət zolağından ibarətdir. Çiyinlərin eni isə hər iki tərəfdən 2 metr olaraq nəzərdə tutulub. Yolun torpaq yatağının genişliyi 10 metrdir ki, bu da nəqliyyatın rahat hərəkət etməsi üçün geniş zolaq təmin edir. Hazırda yolboyu son tamamlama işləri aparılır.

## Mineral gübrələrin səyyar satış xidməti yenidən fermerlərin köməyinə gəlir

**"Aqroservis" ASC yeni əkin mövsümü ilə əlaqədar olaraq bütün anbarlarını tələb olunan lazımi mineral gübrələrlə tam təchiz edib. Səhmdar Cəmiyyəti fermerlərin mineral gübrələrə olan tələbatını sərfəli qiymətlərlə həm rayon bölmələri, həm də səyyar xidmət təşkil etməklə təmin etməyi planlaşdırır.**

Fevral ayından etibarən "Aqroservis" ASC müvafiq qaydalara uyğun şəraitdə saxlanılan, keyfiyyətli, mövsümə uyğun azotlu mineral gübrələrin rayon mərkəzindən uzaq məsafədə yerləşən kənd və qəsəbələrdə səyyar satış xidmətinə başlayıb. Səyyar satış xidmətləri mövsüm bitənədək hər gün, ölkənin bütün istiqamətlərində fərqli məntəqələr üzrə əsasən fermerlərin tələbatına uyğun kənd və qəsəbələrdə təşkil edilir. Respublikamızın bütün regionlarını əhatə edən səyyar satış xidməti zamanı ammonium-nitrat, karbamid, ammonium-sulfat, kalium-sulfat, həmçinin tələbat olduğu təqdirdə ammofos kimi mineral gübrələrin satışı həyata keçirilir.

Səyyar satışın həyata keçirilməsində əsas məqsəd, gübrələrin alışı zamanı vətəndaşların sərf etdikləri zaman məsafə itkisinin və əlavə məsrəflərin qarşısının alınması, həmçinin vətəndaşlara cəmiyyətin əlçatanlığını, yaxınlığını təmin edərək vətəndaş məmnuniyyətinə nail olmaqdır. Səyyar satış vasitəsilə vətəndaşların mineral gübrələri asanlıqla əldə etməsi əkinə cəlb edilən bütün torpaqlarda gübrələrdən istifadə edilməsinə şərait yaradır və bu da məhsuldarlığın artmasına öz müsbət təsirini göstərir.

Fermerlər əkin mövsümündə mineral gübrələrin alışında sərf edəcəkləri məsrəfə qənaət etmək üçün səyyar satış xidmətlərini ASC-nin 1659 satış mərkəzinə müraciət edərək sifariş edə bilərlər. Müraciətlərə əsasən, səyyar xidmətlər kənd və qəsəbələrdə təşkil edilir.

Səyyar satış zamanı fermerlər "Fermer kartı"nı və şəxsiyyət vəsiqəsini təqdim etməklə və ya nağd ödəniş etməklə mineral gübrə əldə edə bilərlər. İstər "Fermer kartı" ilə, istərsə də nağd ödəniş edildikdə gübrələrin qiyməti dəyişmir. Bu qayda həmçinin anbardan və ya səyyar satış məntəqəsindən alış zamanı da keçərlidir. Alış üsulu və ünvanından asılı olmayaraq "Aqroservis" ASC tərəfindən satılan mineral gübrələrin qiymətləri dəyişilməz olaraq qalır.



# "Cənub qaz dəhlizi"nin birləşdirici halqası

## TANAP-ın təməlinin qoyulmasından 10 il keçir




**Azərbaycanın və Türkiyənin birgə layihəsi - TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) Xəzərin sahilindəki Səngəçal terminalından başlayaraq Adriatik dənizinin sahilinə, İtaliya torpağınadək uzanan 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin ən böyük hissəsidir. Onu "Cənub qaz dəhlizi"nin birləşdirici halqası, bel sütunu da adlandırırlar.**

Bu səbəblərdən də 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda TANAP-ın təməlinin qoyulması tarixi bir hadisə idi. Bu, uzunmüddətli danışıqlardan konkret işlərə keçməyə imkan yaradırdı. Çünki kəmərin salnaməsi hələ bundan xeyli əvvəl başlanmışdı. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin ovaxtkı baş naziri, indi Prezidenti olan Rəcəb Tayyib Ərdoğan TANAP üzrə hökumətlərarası sazişi İstanbulda hələ 2012-ci ilin iyun ayında imzalamışdılar. Prezident İlham Əliyevin dediyi kimi, TANAP-a aparan yol 2012-ci ildə başlamışdır.

Layihənin həyata keçirilməsi istiqamətində genişmiqyaslı işlərə də elə həmin vaxtdan start verilmişdir. 2014-cü ilin ortalarınadək layihələndirmə işləri, araşdırmalar tamamlanmışdı. Sonra mühəndis-layihələndirmə, təchizat-tədarük, tikinti-idarəçilik müqavilələri imzalanmış və kəmərin tikintisinin bütün incəlikləri nəzərdən keçirilmişdi. Beləliklə, 2014-2015-ci illər TANAP-ın ərsəyə gəlməsində çox məsuliyyətli bir dövr olmuşdu.

Enerjinin İpək yolu sayılan TANAP 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Qardaş ölkəyə ilk qaz həcmlərinin nəqli isə planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlanıb. TANAP Türkiyənin ərazisində 1850 kilometrlik məsafə qət edir, ölkənin 20 vilayətindən, 67 rayonundan və 600 kəndindən keçərək Avropanın qapısına çatır. Kəmərin Gürcüstan-Türkiyə sərhədində başlayıb Əskişəhərdə bitən hissəsinin uzunluğu 1350 kilometr, oradan Türkiyə-Yunanıstan sərhədinədək olan hissəsi isə 480 kilometr təşkil edir. 2019-cu il iyulun 1-dən etibarən TANAP Azərbaycan qazını TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) ötürmək üçün hazır vəziyyətə gətirilib.

Bu boru xəttinin təkcə region üçün deyil, bütün Avropa məkanı üçün əhəmiyyəti böyükdür. "Cənub qaz dəhlizi"ni yaradan üç kəmərin ikincisi olması TANAP-ın dəyərini daha aydın əks etdirir. Belə ki, bu xətt Gürcüstan-Türkiyə sərhədində genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri) ilə birləşir, Türkiyə-Yunanıstan sərhədində isə TAP-a qovuşur.

Hazırda TANAP-la TAP-a ötürülən Azərbaycan qazı Avropanın 10 ölkəsinə - Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiyaya çatdırılır. Xatırladaq ki, TAP 2020-ci ilin son günündən fəaliyyətə başlayıb.

Bu il martın 5-də Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində Prezident İlham Əliyev demişdir: "Bu gün Türkiyə və Azərbaycan - iki qardaş ölkə nəhəng layihələr reallaşdırır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi neft-qaz boru xətləri layihələri nəinki ölkələrimizi birləşdirdi, eyni zamanda Avrasiyanın enerji xəritəsini dəyişdirdi. Bu gün Azərbaycandan, Türkiyə ərazisindən gedən qaz bir çox ölkənin enerji təhlükəsizliyini təmin edir. Keçən il Azərbaycanın qaz ixracatı 25 milyard kubmetrə çatmışdır. Onun təxminən yarısı Türkiyəyə olan ixracatdır və Türkiyədən başqa da 11 ölkə, onlardan 10 Avropa ölkəsi Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini gücləndirir".

Elə həmin tədbirdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dedikləri də diqqət çəkir: " Ölkələrimiz arasındakı münasibətlər müdafiədən ticarətə qədər çox geniş sahədə daim inkişaf edir. Şübhəsiz ki, bu əməkdaşlıqlarımız arasında bir çox layihə ilə taclandırdığımız enerji sektoru başda yer alır. Bəzilərinin xəyal hesab etdiyi Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri kimi, "Şahdəniz" yatağının və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərinin istismara verilməsi ilə enerji əməkdaşlığımızı daha irəliyə aparmağa nail olduq. Anadoludan keçən təbii qaz boru kəməri - TANAP vasitəsilə böyük miqdarda Azərbaycan qazının Avropaya çatdırılmasının sevincini yaşayırıq. Bu sahədə strateji və qeyri-adi layihələri həyata keçirməkdə Can Azərbaycan ilə tam uzlaşma içərisindəyik" .

Deyilənlərə əlavə edək ki, cari ilin ötən iki ayında TANAP-la Türkiyəyə 0,9 milyard kubmetr qaz nəql olunub. Bu dövrdə Avropaya çatdırılan təxminən 1,9 milyard kubmetr Azərbaycan qazını da TAP-a TANAP ötürüb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Tranzit imkanları Azərbaycanı tezliklə dünya ticarətinə yön verən ölkəyə çevirəcək

**Bu gün İkinci Dünya müharibəsindən sonra formalaşan beynəlxalq "arxitektura" yenidən qurulur və bu "arxitektura"da hər bir ölkə özünə yer və təhlükəsizliyinə təminat almaq istəyir. Bu baxımdan Azərbaycan da istisna deyil.**




Prezident İlham Əliyevin apardığı xarici siyasət ölkəmizin beynəlxalq arenada etibarlı tərəfdaş obrazını formalaşdırmışdır. İndi ölkəmizin üzərinə götürdüyü bütün öhdəliklərə məsuliyyətlə yanaşaraq onu yerinə yetirdiyini bilməyən, görməyən dövlət yoxdur. Azərbaycan həmçinin siyasi münasibətlərdə milli mənafeyi əsas tutmaqla yanaşı, mövcud beynəlxalq qanunlara da əməl edir. Yəni Azərbaycan öz xarici siyasəti ilə heç bir ölkəyə problem yaratmır, əksinə, uzlaşmağa, qarşılıqlı əməkdaşlığa üstünlük verir.

Azərbaycanı dünya üçün əhəmiyyətli edən digər amil ölkəmizin iştirakı ilə icra edilən qlobal layihələrlə bağlıdır. O layihələrlə ki, onların icrası dünyanın aparıcı ölkələri ilə əməkdaşlığımızı təmin edir. Yəni qarşılıqlı maraqlar eyni zamanda siyasi tərəfdaşlığa çevrilir. Bu transmilli layihələrdən biri də Orta dəhlizdir. Həmin dəhliz ki, hazırda dünyada sanksiyaların tətbiq olunmadığı tək qlobal ticarət marşrutudur.

Coğrafiyasına, üzərində yerləşən dövlətlərin və əhalinin sayına görə alternativsiz beynəlxalq ticarət marşrutu olan Orta dəhlizin açar ölkəsi isə Azərbaycandır. Azərbaycan bu qlobal nəqliyyat dəhlizi ilə yanaşı, həm də "Şimal-Cənub" marşrutunda qovşaq ölkədir. Bu o deməkdir ki, önümüzdəki illərdə Azərbaycan dünya ticarətinə yön verən ölkəyə çevriləcək.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunda bir çox beynəlxalq məsələyə toxunaraq Azərbaycanın tranzit ölkə kimi qlobal müstəvidəki rolunu da qeyd etmişdir: "Bağlantı məsələlərinə gəldikdə, mən demək istəyirəm ki, son geosiyasi dəyişikliklərdən irəli gələrək Azərbaycandan keçən yüklərin daşınması həcmi kəskin şəkildə artmışdır. Biz bunun üçün yaxşı hazırıq, çünki biz üzərimizə düşən işi artıq icra etmişik. İndi isə biz, sadəcə, dəniz limanı, dəmiryolu infrastrukturunun buraxılış qabiliyyətini artırmalıyıq ki, son illər ərzində Azərbaycana istiqamətləndirilmiş bütün yükləri qəbul edə bilək. Beləliklə, əlbəttə ki, bölgəmizin - Cənubi Qafqaz bölgəsinin geosiyasi əhəmiyyəti artır və həmin bölgədə biz sülhün bərqərar olunması üçün hələ də çalışırıq".

Azərbaycan Orta dəhliz və "Şimal-Cənub" marşrutlarında açar ölkə olduğu üçün əksər tədbirlər də Bakıda keçirilir. Hazırda yüklərin təhlükəsiz və qısa müddətdə çatdırılmasında Orta dəhlizə alternativ marşrut yoxdur. O üzdən Asiya və Avropa ölkələri bu marşrutla daha çox yüklərin daşınmasına maraq göstərir. Bunun üçün hüquqi prosedurların sadələşdirilməsi, vahid tariflərin tətbiqi və dəhlizin yükdaşıma qabiliyyətinin artırılması önəmlidir. Hazırda bu istiqamətdə müxtəlif tədbirlər görülür. Bu baxımdan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi marşrutunun (TBNM, Orta dəhliz) növbəti tədbirinin Bakıda keçirilməsi də təsadüfi deyil. Bununla bağlı TBNM Beynəlxalq Assosiasiyasının baş katibi Qaydar Abdikerimov bildirib ki, Orta dəhlizin inkişafı çərçivəsində limanlar, dəmir yolları, gəmiçilik və logistika mərkəzləri kimi əsas infrastruktur istiqamətlərini əhatə edən investisiya layihələri paketi formalaşıb. Onun həyata keçirilməsi üçün dövlət-özəl tərəfdaşlığı, yəni özəl investisiyalar və dövlət vəsaiti daxil olmaqla müxtəlif maliyyələşmə modelləri nəzərdə tutulub. Qurum investorlar üçün cəlbedici və qarşılıqlı faydalı şərtlər yaratmağa çalışır. Bundan başqa, çevik əməkdaşlıq sxemləri, uzunmüddətli zəmanətlər və dəhliz iştirakçısı olan ölkələrin hökumətləri səviyyəsində dəstək verilir. Məqsəd təkcə strateji tərəfdaşları cəlb etmək deyil, həm də əsas nəqliyyat infrastrukturunun inkişafını sürətləndirməklə Orta dəhlizi daha rəqabətqabiliyyətli və səmərəli etməkdir.

Xüsusi olaraq vurğulayaq ki, Orta dəhliz üç əsas qlobal təməl üzərində qurulub. Çinin "Bir kəmər, bir yol" (Belt and Road Initiative) proqramı, Avropa İttifaqının infrastrukturun inkişafına yönəlmiş "Global Gateway" proqramı, həmçinin strateji nəqliyyat layihələrinə investisiyaların cəlb edilməsini nəzərdə tutan PGII (Partnership for Global Infrastructure and Investment). Həmin proqramlar çərçivəsində güzəştli şərtlərlə maliyyə dəstəyi və investisiya təqdim edən beynəlxalq maliyyə institutları fəal şəkildə işləyir. Bunlar Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və Dünya Bankıdır. Onlar Orta dəhlizi strateji əhəmiyyətli istiqamət kimi nəzərdən keçirir və dəmir yollarının modernləşdirilməsi, limanların inkişafı və nəqliyyat proseslərinin rəqəmsallaşdırılması, həmçinin infrastruktur layihələrinə investisiyaların cəlb edilməsi üçün sıx əməkdaşlıq edirlər.

Hazırda yüklərin Xəzər dənizi üzərindən aşırılmasında Qazaxıstanın Aktau limanı önəmli rol oynayır. Qarşıdakı illərdə Asiyadan Avropaya daşınan yüklərin dəfələrlə artması gözlənilir. Bunun üçün də Xəzər dənizi üzərindən yüklərin fasiləsiz daşınması üçün əlavə limana ehtiyac var.

Türkmənistanın Türkmənbaşı limanı bu sahədə böyük imkanlara malikdir. O səbəbdən Avropa İttifaqı (Aİ) limanın fəaliyyətinin genişlənməsinə maraq göstərir. Aİ-nin beynəlxalq tərəfdaşlıq üzrə komissarı Yozef Sikelanın Türkmənistana səfəri də bu səbəbdəndir. Komissar səfər zamanı ikitərəfli əməkdaşlıqla bərabər, Türkmənbaşı limanının imkanlarını da müzakirə edib. Bununla bağlı Yozef Sikela deyib ki, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin potensialının açılması ilə bağlı böyük fürsət görür və bu, Türkmənbaşını Avropa və Asiya arasında əsas tranzit qovşağına çevirəcək: "Bu dəhliz malların Avropaya çatdırılma müddətini təxminən 15 günə qədər azaldacaq, logistika, nəqliyyat və ticarət sahələrində yeni iş yerləri və investisiya imkanları yaradacaq".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*



# İDMAN



# Zəfər estafeti

## Dünya minifutbolunun nəbzi Bakıda döyünəcək



**Azərbaycan olduqca böyük, beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara, konfranslara - bir sözlə, nüfuzlu tədbirlərə evsahibliyi edib. Belə qlobal tədbirlərin keçirilməsi üçün etimadın göstərilməsi heç də təsadüfi deyil.**



Bu, əlbəttə, Azərbaycanın qazandığı uğurların, nüfuzun, beynəlxalq çəkinin, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar qarşısında əldə etdiyi reputasiyanın ifadəsidir.

### "Bakı-2025"də tarix yazılacaq

Artıq Azərbaycan dünyada həm də beynəlxalq idman yarışlarının, dünya və Avropa çempionatlarının keçirildiyi unikal məkan statusuna sahiblənib. Elə il yoxdur ki, ölkəmizdə hansısa beynəlxalq idman yarışı keçirilməsin. Hazırda isə idman ölkəsi daha bir nüfuzlu yarışı - minifutbol üzrə dünya çempionatını qəbul etməyə hazırlaşır. May ayının 21-dən iyun ayının 1-dək Milli Gimnastika Arenasında keçiriləcək mundialda dünyanın ən güclü 32 komandası mübarizə aparacaq.

Bu günlərdə DÇ-nin püşkatma mərasimi keçirilib. Mərasimdə Dünya Minifutbol Federasiyasının prezidenti Filip Yuda, gənclər və idman naziri Fərid Qayıbov, AFFA-nın prezidenti Rövşən Nəcəf çıxış edərək Azərbaycanda böyük futbolla bərabər minifutbola da marağın getdikcə artdığını xüsusi olaraq vurğulayıblar. Qeyd ediblər ki, dünya çempionatının Bakıda keçirilməsi bu idman növünə marağı daha da artıracaq.

Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov dünya çempionatının ölkəmizə həvalə edilməsinə görə dünya minifutbol federasiyasının rəhbərliyinə minnətdarlığını bildirib. O, minifutbol üzrə yığma komandamızın Avropa çempionu olduqdan sonra bu idman növünə marağın xeyli artdığını söyləyib.

Orxan Məmmədov Prezident İlham Əliyevin Avropa çempionatından sonra millimizin üzvlərini qəbul etməsini onlara əlavə stimul verdiyini diqqətə çatdıraraq bu amilin dünya çempionatının təşkilatçılığında ciddi rol oynadığını açıqlayıb.

### Möhtəşəm sürpriz

Tədbirə göstərilən maraq, yüksəksəviyyəli hazırlıq heç də futbol üzrə dünya çempionatının püşkatmasından geri qalmayıb. Bu dəfə də yüksək təşkilatçılıqla nümunə göstərən Azərbaycan Minifutbol Federasiyası (AMF) minifutbol tarixinə möhürünü vurub. Çünki indiyədək dünya çempionatlarında bu cür möhtəşəm püşkatma mərasimi keçirilməmişdi.






Etiraf edək ki, hamı üçün bu sıradan bir püşkatma mərasimi kimi görünsə də, tədbirin keçirildiyi məkana daxil olduqda başqa bir ab-havanın başqa bir möhtəşəm hazırlığın şahidi olduq. Sanki FİFA və UEFA-nın mötəbər tədbirindəki kimi atmosferlə üz-üzə gəldik. Tədbiri yüksək səviyyədə keçirmək, mükəmməl təşkilatçılıq bacarığını nümayiş etdirmək elə də asan məsələ deyil. Bütün detallar tam dəqiqliklə nəzərə alınmışdı. Xüsusi olaraq vurğulayaq ki, minifutbol maliyyə resursları elə də yüksək olmayan idman növüdür.

Tədbir başladı... Ölkənin tanınmış, futbol ictimiayyətinin görkəmli simaları burada idi. Adətən, belə mötəbər tədbirlərin püşkatmasında iştirak edənlər dünyanın tanınmış futbol ulduzlarını görməyə alışıblar. Elə bunu düşündüyümüz anda möhtəşəm sürprizlə qarşılaşdıq.

Tədbirin aparıcıları dünya ulduzunu püşkatma üçün səhnəyə dəvət edəcəklərinin anonsunu verdilər. Hamı təəccüb və həyəcanla bu adın kim olacağını fikirləşməyə başladı. Və budur, AMF rəhbərliyinin xüsusi təşəbbüsü sayəsində Portuqaliya millisində Avropa çempionu olan, "Mançester Yunayted" (İngiltərə) kimi qitənin ən böyük klublarından birində forma geyən Luiş Nani səhnəyə dəvət olundu. Tədbir iştirakçılarının böyük alqışına səbəb olan səhnəni sözlərlə ifadə etmək olduqca çətindir.

### Azərbaycan Minifutbol Federasiyasının yüksək təşkilatçılığı

İndi isə hər kəs böyük səbrsizliklə mundialın başlayacağı tarixi gözləyir. Dünyanın müxtəlif ölkələrindən gələcək komandaları, federasiya rəsmilərini, azarkeşləri maraqlı sürprizlər gözləyir. Milli komandamızdan isə həmişə olduğu kimi ən yüksək nəticəni gözləyirik. Bu cür təşkilatçılığa, belə də sonluq yaraşardı.

Ümumiyyətlə, etiraf edək ki, bu tipli nüfuzlu yarışlar üçün ən azı 2-3 il zaman verilsə də, Azərbaycanın dünya çempionatına hazırlıq üçün cəmi bir il vaxtı vardı. Mundialın keçirilməsində böyük təcrübə mövcuddur və demək olar ki, Dünya Minifutbol Federasiyası (WMF) hər bir sahə üzrə öz göstərişlərini verir. Mövcud təlimatlarda hər bir istiqamət üzrə müəyyən edilmiş metodiki qaydalar var.

"Bakı-2025"də isə bütün məsuliyyət, təşkilati məsələlərin yoluna qoyulması Azərbaycanın öz üzərinə düşürdü. Bu müddət ərzində Bakıda qarşılaşmaların keçirilməsi üçün infrastrukturun yaradılması və oyunların təşkili üzrə digər işlərin sürətlə həyata keçirilməsi göstərir ki, AMF hazırlıq işlərini göstərilən vaxtda yüksək səviyyədə başa çatdırmaq üzrədir. Təkcə onu demək kifayətdir ki, Azərbaycan Minibutbol Federasiyasının qısa zaman kəsiyində əldə etdiyi uğur, bəlkə də bu sahədə ənənəsi olan böyük dövlətlərin onilliklər ərzində qazandıqları nailiyyətlərdən, uğurlardan böyükdür.

Federasiya rəhbərliyi az vaxtda uğura aparan yolun qısa xülasəsini təqdim etdi və bir daha bəlli oldu ki, həqiqətən də istənilən sahədə qısa zamanda uğurun qazanılması mümkündür. Əgər yüksək təşkilatçılıq bacarığı, istedad, peşəkar yanaşma, diqqət və qayğı, ən əsası isə milli ruhun, vətənpərvərliyin ən ali dəyər kimi qəbul edildiyi yerdə zəfər qaçılmazdır. Yalnız azərbaycanlılardan ibarət və milli ruha malik komanda yaradılıb və düzgün idarəetmə sayəsində qısa zamanda yüksək nəticələr əldə edilib.

Göründüyü kimi qısa müddətdə bu qədər irihəcimli işlərin görülməsi, həqiqətən, gərgin və fədakar zəhmət tələb edir. Lakin Azərbaycan Minifutbol Federasiyası ən yüksək formada bunun öhdəsindən gəlməyi bacarıb. Bakıda mundiala hazırlıq, püşkatma mərasiminin yüksək səviyyədə təşkili üzrə digər işlərin sürətlə həyata keçirilməsi göstərdi ki, AMF rəhbərliyi hazırlıq işlərini göstərilən vaxtda yüksək səviyyədə başa çatdırmaqla misli görünməmiş bir uğura imza atmaqdadır.

"Bakı-2025"də görüşənədək...

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*



# Heydər Əliyev seyrəngahı Novruza hazırlaşır

**Bu məkanda nə varsa, hamısı göz oxşayır. Zövqlə salınmış seyrəngahda insanların istirahəti üçün hər şey nəzərə alınmışdır. Fəvvarələrin, şəlalələrin şırıltısı, müxtəlif növdən olan dekorativ ağaclar, güllər, çiçəklər, maral, ceyran, dağkeçisi heykəlləri, süni göl seyrangaha xüsusi gözəllik və təravət verir.**




Seyrəngahı gəzib-dolaşdıqca özünü təbiətin qoynunda hiss edir, gözəllikdən zövq alırsan. Gözünə, könlünə dinclik, rahatlıq gəlir. İstirahət ocağında söhbətgahlar, səliqəli oturacaqlar, özünəməxsus gecə işıqlandırıcı sistemi quraşdırıldığından onun axşamları da al-əlvan nura boyanır.

Seyrəngahda uşaqlar üçün də hər cür şərait yaradılıb. Balacaların ətrafa yayılan şən gülüşləri hər kəsdə xoş hisslər oyadır. Fikirləşirsən ki, çox yox, 10-15 il öncə bu qədim Muğan şəhərində bunların heç biri olmayıb.

İstirahət mərkəzində şahmat üçün böyükhəcmli lövhə qoyulub. Süni gölün üstündəki pavilyon, buradakı kafe isə seyrəngaha gələnlərin, xüsusən gənclərin ürəyincədir.

Bayramlarda, əlamətdar günlərdə seyrəngah daha çal-çağırlı, izdihamlı olur. Konsertlərin, mədəni-kütləvi tədbirlərin təşkili üçün Cəlilabad RİH tərəfindən bir müddət əvvəl seyrəngahın giriş qapısı önündə səhnə quraşdırılmışdır.

Bahar bayramı ərəfəsində seyrəngah xüsusi ovqatdadır. Ulu Öndər Heydər Əliyevin adını daşıyan bu məkan tezliklə nəinki rayon sakinlərini, Bakıda və digər yerlərdə yaşayan, bayramlaşmaq üçün doğmalarına, əzizlərinə baş çəkməyə gələn qonaqları da öz qoynuna alacaq.

***Seyran CAVADOV, "Azərbaycan"***

# Bilmək istəyirəm

*Ali təhsilli gənc mütəxəssisəm. Əmək fəaliyyətinə 2021-ci ildə başlamışam, amma bir aya yaxındır ki, müqavilə müddətim qurtardığına görə işdən azad olunmuşam. Mənə işsizlikdən sığorta ödənişi düşürmü? Əgər düşürsə, bunun üçün hara müraciət etməliyəm?*

***Aytac MURADOVA, Xırdalan şəhəri***

Sualınıza cavab olaraq bildiririk ki, işsiz şəxslərə işsizlikdən sığorta ödənişinin həyata keçirilməsi məsələsi "İşsizlikdən sığorta haqqında", "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunları və "İşaxtaran və işsiz şəxslərin qeydiyyata alınması Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə tənzimlənir.

"İşsizlikdən sığorta haqqında" qanunun 13-cü maddəsinə əsasən, sığorta ödənişi şəxsə o halda təyin edilə bilər ki, həmin şəxsin əmək müqaviləsinə Əmək Məcəlləsinin müvafiq maddəsi ilə xitam verilmiş olsun, həmçinin həmin şəxs "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq, işsiz kimi qeydiyyata alınsın.

Məlumat üçün əlavə edək ki, aşağıda sadalanan əsaslarla:

- dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, işçilərin və ya dövlət qulluqçularının sayı və ya ştatların ixtisar edilməsi *(müvafiq olaraq Əmək Məcəlləsinin 70-ci maddəsinin "a" və "b" bəndləri, şəxs son iş yerində dövlət qulluqçusu kimi işləyibsə, "Dövlət qulluğu haqqında" qanunun 33.1.2 və 33.1.3 maddələri nəzərdə tutulur)*;
- müəssisənin mülkiyyətçisi dəyişdikdə *(həmin məcəllənin 63-cü maddəsinin ikinci hissəsində göstərilən işçilər)*;
- əvvəllər müvafiq işdə (vəzifədə) çalışan işçinin işinə (vəzifəsinə) bərpa edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi (qərarı) olduqda *(Əmək Məcəlləsinin 74-cü maddəsinin 1-ci hissəsinin "b"bəndi)*;
- əvvəllər həmin müəssisədə çalışan işçi müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra öz iş yerinə (vəzifəsinə) qayıtmaq hüququndan istifadə etdikdə *(Əmək Məcəlləsinin 74-cü maddəsinin 1-ci hissəsinin "ə" bəndi)* əmək müqaviləsinə xitam verilmiş işsiz şəxslərə (tələb olunan sığorta stajına malik olduqları halda) işsizliyin davamiyyətindən asılı olaraq işsizlikdən sığorta ödənişi ilkin müraciət zamanı 6 ay, təkrar müraciət zamanı isə 3 ay müddətinə təyin edilir.
- əmək müqaviləsinin müddətinin qurtarması əsası ilə *(Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "b" bəndi, 73-cü maddəsi)* işdən azad olunan işsiz şəxslərə isə 3 ay müddətinə təyin edilir və sözügedən şəxslərin təkrar müraciət zamanı yenidən minimum sığorta ödənişi almaq hüququ yoxdur.

Sizin hala gəldikdə qeyd olunmalıdır ki, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 13.1.3-cü maddəsinə uyğun qaydada sizə əmək müqaviləsinin müddətinin qurtarması əsası ilə sığorta ödənişi təyin edilə bilər. Bunun üçün siz "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə müvafiq olaraq işsiz şəxs kimi müraciət etməlisiniz. "İşaxtaran və işsiz şəxslərin qeydiyyata alınması Qaydası"nın 2-ci bəndinə görə, siz işaxtaran kimi qeydiyyata alınmaq üçün "Elektron hökumət" və ya "e-sosial" portallarının mövcud autentifikasiya vasitələrindən istifadə etməklə, Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin (bundan sonra - MEİS) "Məşğulluq" altsistemində (bundan sonra - MAS) "Müraciət-Ərizə"ni doldurmalısınız. Müraciət MAS tərəfindən qəbul edildikdən sonra işaxtaran kimi qeydiyyata alınır və bu barədə məlumat sizin elektron kabinetinizdə yerləşdirilir və mobil nömrənizə göndərilir. MAS-da işaxtaran kimi qeydiyyata alınmış, işi və qazancı olmayan əmək qabiliyyətli şəxsə mərkəz tərəfindən 5 (beş) iş günü müddətində münasib iş təklifi edilmədiyi və ya işəgötürən (işəgötürənlər) tərəfindən vakansiyaya qəbulundan imtina edildiyi halda həmin şəxsin işsiz kimi qeydiyyata alınması barədə qərar qəbul olunur və bu tərtib edilmiş fərdi məşğulluq vərəqində müvafiq qeydlər aparılmaqla, sizin şəxsi kabinetinizə yerləşdirilir. Sonra isə əgər sizin azı 24 ay sığorta stajınız mövcuddursa, sığorta hadisəsinin (əmək müqavilənizə xitam verilməsi) baş verdiyi tarixdən əvvəlki ardıcıl gələn 36 təqvim ayı ərzində müddətli əmək müqaviləsi üzrə minimum sığorta ödənişi məbləğində ödəniş təyin edilir.

Beləliklə, sizə əmək müqavilənizin müddətinin qurtarması səbəbindən işdən azad edildiyinizə görə işsiz şəxs kimi yalnız 3 ay müddətinə sığorta ödənişi müəyyən oluna bilər və işsizlik davam edərsə, təkar müraciət hüququnuz yoxdur.

Onu da qeyd edək ki, Dövlət Məşğulluq Agentliyinin yerli qurumları və ya "DOST" mərkəzlərinin xidmətindən də yararlana bilərsiniz.

*Həyat yoldaşımdan ayrılmışam, işləmirəm və 2 azyaşlı uşağım var. Sosial yardım alıram. Bilmək istəyirəm sosial kartla kredit götürə bilərəm?*

***Gülşən QUBADOVA, Cəlilabad rayonunun Cəngan kəndi***

Sualınızda qaldırdığınız məsələ "Ünvanlı sosial yardım haqqında" Azərbaycan Respublikasının Qanunu və "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.02.2016-cı il tarixli 37 saylı qərarı ilə tənzimlənir.

Adıçəkilən qanunun 10.2-ci maddəsinə əsasən, sosial yardım təyin edildikdən sonra ailənin gəlirlərində dəyişiklik baş verdikdə sosial yardım alan ailə bu barədə yardım təyin edən quruma 15 (on beş) iş günü müddətində məlumat verməlidir. Sosial yardımın məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar barədə qeyd olunan müddətdə məlumat verilmədikdə həmin ailə 1 (bir) il müddətinə sosial yardım almaq hüququnu itirir. Bununla bərabər, qanunvericilik baxımından "bank krediti"nin ailənin gəliri kimi nəzərə alınıb-alınmaması məsələsinin müəyyənləşdirilməsi zəruridir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 37 saylı qərarına 07.11.2020-ci il tarixdə edilmiş dəyişikliklə "bank krediti" şəxsin gəlirlərinin sırasından çıxarılmışdır. Qeyd olunan tarixədək şəxsin kredit alması onun gəlirlərinin dəyişməsi kimi nəzərə alınırdı.

Beləliklə, yuxarıda qeyd olunanlar baxımından siz istənilən bankdan kredit ala bilərsiniz. Belə olan halda sosial yardım təyin edən orqan sizə verilən yardımın dayandırılması ilə bağlı hər hansı addım atmaq hüququna malik deyil.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Azərbaycan öz enerji sərvətlərinə məsuliyyətlə yanaşır
Ölkəmizin enerji siyasəti XII Qlobal Bakı Forumunda da təqdir edilir
"Cənab Prezident, Sizinlə danışmaq hər zaman çox xoşdur"
Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib
Sülh olacaq?!
İlham Əliyevin şərtlərini İrəvan sözdə yox, əməldə təsdiqləsə, bununla bağlı saziş imzalana bilər
Ermənistanın beynəlxalq hüquq müstəvisində növbəti məğlubiyyəti
BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupu Ruben Vardanyanın işi ilə bağlı bu ölkənin iddialarını rədd edən rəy bildirib
azerbaijan-news.az

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Bakı növbəti dəfə Beynəlxalq Şahmat Festivalına evsahibliyi edəcək

**Azərbaycan Şahmat Federasiyası (AŞF), Gənclər və İdman Nazirliyinin dəstəyi ilə növbəti dəfə "Baku Open - 2025" Beynəlxalq Şahmat Festivalı keçiriləcək.**




AŞF-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, festivaldan öncə şahmat dünyasının əfsanəvi simalarından biri, 15-ci dünya çempionu Vişvanatan Anand Bakıya səfər edəcək. Hindistanlı şahmatçı Azərbaycan çempionatının son qalibi Rauf Məmmədovla rapid və blits partiyalarında üz-üzə gələcək. Vişvanatan Anandla Rauf Məmmədov arasında turnirin aprelin 27-30-da keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, "Baku Open - 2025" Beynəlxalq Şahmat Festivalı Bakı Kristal Zalında 27 aprel (gəlmə günü) - 6 may (son tur və bağlanış) tarixləri arasında keçiriləcək və şahmatçılar üç qrupda İsveçrə sistemi üzrə 9 turda (A, B və C) mübarizə aparacaqlar.

Festivalın ümumi mükafat fondu 55 min dollara bərabərdir.




# Azərbaycanın üç boksçusu Macarıstandakı turnirdə finala yüksəlib

**Macarıstanın Debretsen şəhərində boks üzrə beynəlxalq turnirdə yarımfinal mərhələsinin görüşləri keçirilib.**

Boks Federasiyasından AZƏRTAC-a bildirilib ki, bu mərhələdə rinqə çıxan Azərbaycan millisinin 3 idmançısının hər biri qələbə qazanaraq finala vəsiqə əldə edib.

50 kiloqram çəkidə Tural Sarıyev Peter Lakatosla (Macarıstan) qarşılaşıb. O, rəqibini 5:0 (30:27, 29:28, 30:27, 30:25, 30:26) hesabı ilə məğlub edib. Sarıyev həlledici görüşdə Atilla Bernatla (Macarıstan) üz-üzə gələcək.

Məhəmmədəli Qasımzadə (60 kiloqram) Aksel Eqartdan (Uels) güclü olub. Boksçumuz 4:1 (29:28, 29:28, 29:28, 28:29, 39:27) hesabı ilə qələbə qazanıb. O, finalda Kruzito Kovaçsla (Macarıstan) döyüşəcək. Əli Abdullayev (65 kiloqram) isə yarımfinalda Erik Suçiyə (Çexiya) qalib gəlib - 5:0 (29:28, 30:27, 30:26, 30:27, 30:27). Boksçumuz qızıl medal uğrunda Milan Petrimanla (Macarıstan) qüvvəsini sınayacaq.

# Bu günün hava proqnozu açıqlanıb

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, martın 16-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12° isti, gündüz 19-24° isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-12° isti, gündüz 25-30° isti, dağlarda gecə 3-8° isti, gündüz 20-25° isti olacağı bildirilir.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-8° isti, gündüz 23-28° isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12° isti, gündüz 18-23°, bəzi yerlərdə 26-28° isti olacağı gözlənilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10° isti, gündüz 17-22°, bəzi yerlərdə 25°-dək isti olacaq.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13° isti, gündüz 25-30° isti olacağı proqnozlaşdırılır.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13° isti, gündüz 23-28° isti, dağlarda gecə 3-8° isti, gündüz 20-25° isti olacağı bildirilir.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-12° isti, gündüz 25-30° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-11° isti, gündüz 22-27° isti, dağlarda gecə 8-11° isti, gündüz 20-25° isti olacaq.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3514
Sifariş 534

Qiyməti 60 qəpik